# ƏSLA UNUTMAMALIYIQ!



31 mart Azərbaycanlıların Soyqırımı Günüdür. 1918-ci ilin 30 mart - 3 aprel tarixləri arasında Bakı, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə, xüsusi qəddarlıqla qətlə yetiriblər.

Rəsmi mənbələrə əsasən, bu soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı amansızcasına öldürülüb, on minlərlə insan itkin düşüb. Mart soyqırımının törədilməsində əsas məqsəd həm də tarixi ərazilərimiz olan İrəvan və Zəngəzurun azərbaycanlılardan təmizlənməsi idi.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

30 MART ŞƏNBƏ 2024 I 11 (4162)

Qiyməti - 40 qəpik

www.kaspi.az






## RUMEN RADEV İLHAM ƏLİYEVƏ ZƏNG EDİB

Rumen Radev Prezident İlham Əliyevə zəng edib. O, Bakıya nəzərdə tutulan səfərinin ölkəsindəki daxili siyasi öhdəliklər səbəbindən gözlənilmədən təxirə salınmasından təəssüfləndiyini bildirib.

SƏHİFƏ 2-də



## İPOTEKA ŞƏRTLƏRİNİN YÜNGÜLLƏŞDİRİLMƏSİ TƏKLİF EDİLİR

Millət vəkili: "Ölkədə nə qədər sayt, sayt rəhbəri var. Əməkhaqqısı yüksək olan jurnalistlər var. İpoteka götürmək istəyəndə isə onlara elə münasibət göstərirlər ki, sanki bu işləri müvəqqətidir".

SƏHİFƏ 10-da



## İNNOVASİYALAR SAHƏSİNDƏ GERİDƏYİK

2023-cü il üçün innovasiyalar üzrə dünya reytinqində Azərbaycan 132 ölkə arasında 89-cu yerdə qərarlaşıb. WIPO-nun hazırladığı reytinqdə ən innovativ ölkələr İsveçrə, İsveç, ABŞ, Böyük Britaniya və Sinqapur seçilib.

SƏHİFƏ 13-də



# ERMƏNİSTANIN SAHİBİNİ DƏYİŞMƏ CƏHDİ

ABŞ siyasi, NATO hərbi, Avropa İttifaqı isə iqtisadi təminatları üzərlərinə götürməklə, Ermənistan vasitəsilə yeni regional arxitekturanın cızılmasına start verirlər. İri miqyasda bu, Rusiya və İranın maraqlarına, sırf bölgə daxilində isə Azərbaycanın təhlükəsizliyinə qarşı atılan addımdır.

**BÖLGƏNİN GƏLƏCƏYİ ÜÇÜN TƏHLÜKƏ**

Aprelin 5-də Ermənistan baş naziri Nikol Paşinyanın ABŞ dövlət katibi Entoni Blinken, NATO-nun baş katibi Yens Stoltenberq və Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenlə gözlənilən görüşü tək bu ölkənin deyil, bütövlükdə bölgənin firavan gələcəyi üçün ciddi təhlükədir.

**ERMƏNİLƏRİN ƏNƏNƏVİ ŞAKƏRİ**

Erməni xalqının növbəti dəfə sahibini dəyişmək cəhdi tək daha yaxşı və təhlükəsiz həyat üçün deyil, həm də böhrandan çıxdıqdan sonra qonşulara qarşı ərazi iddialarına dəstək qazanmaq niyyətidir.

SƏHİFƏ 4-də

"İt sahibinə oxşayar" deyimi düzdür"

## "HƏR İNSANA UYĞUN İT CİNSİ VAR"



"Elə bir avadanlıq yoxdur ki, itləri əvəz etsin. İtlərin burnunda 200 min qoxu respiratoru olur. Bu göstərici insanda maksimum iki mindir. Bir it binaya daxil olduqda hər qoxunu hiss edir".

Bu fikirlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının partlayıcı və sursat axtarışı üzrə xüsusi hərbi hissəsinin baş kinoloqu olmuş Nicat Əhmədlinindir. Hazırda itlərin təlimi ilə məşğul olan N.Əhmədli ilə sevimli dostları və onların tərbiyəsi haqqında danışdıq.

SƏHİFƏ 8-9-da




## "QANLI CÜMƏ"NİN HƏDƏFİ

Rusiyada Mərkəzi Asiyadan olan miqrantların sıxışdırılması halları yaşanır. Vəziyyət o qədər mürəkkəbdir ki, Tacikistan səfirliyi Rusiyadakı vətəndaşlarına evlərindən çıxmamaqla bağlı xəbərdarlıq edib.

SƏHİFƏ 6-da



## "PULUN YOXDUR, MAŞIN SÜRMƏ"

Parkinq qiymətlərinin qaldırılması ciddi müzakirələrə yol açıb. Kirayədə qalanlar, iş yerlərinə avtomobillə getməyə məcbur olanların narazılıqları səngiməmiş, indi də bu məsələ etiraza səbəb olub.

SƏHİFƏ 7-də



## MİLLİ CAZIN KORİFEYİ

Erməni terrorunun qurbanı olan bəstəkar, Xalq artisti Rafiq Babayev Azərbaycan musiqi mühitinə yeni nəfəs, fərqli baxış gətirib. Milli musiqi zəminində Qərb və Şərq musiqi ənənələrinin sintezini yaradıb.

SƏHİFƏ 15-də



İrəvan-Moskva xəttində gərginlik

SƏHİFƏ 2-də



Məktəblə real həyat arasındakı "uçurum"

SƏHİFƏ 11-də



Yerli istehsal tələbi ödəyə bilmir

SƏHİFƏ 14-də



Dünyanın yeni yeddi möcüzəsindən biri

SƏHİFƏ 12-də



Nağılı gerçək edən qonşularımız

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## Rumen Radev İlham Əliyevə zəng edib

Bolqarıstan Prezidenti Rumen Radev Prezident İlham Əliyevə zəng edib. Rumen Radev Bakıya nəzərdə tutulan səfərinin ölkəsindəki daxili siyasi öhdəliklər səbəbindən gözlənilmədən təxirə salınmasından təəssüfləndiyini bildirib.

Dövlət başçıları qarşılıqlı maraq kəsb edən sahələrdə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər. İki ölkə arasında enerji, sərmayələr, nəqliyyat bağlılığı, habelə biznes təmaslarının təşviqi sahələrində tərəfdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğu vurğulanıb. Həmçinin müqavilə-hüquq bazasının genişləndirilməsi üçün ikitərəfli sənədlərin işçi qaydada razılaşdırılma prosesində olduğu qeyd edilib. Telefon danışığı əsnasında prezidentlər diplomatik kanallar vasitəsilə səfərin yeni tarixlərinin razılaşdırılacağını bildiriblər.



## Sülh sazişi ilə bağlı irəliləyiş əldə edilib

"Azərbaycan və Ermənistan sülhə heç vaxt olmadığı qədər yaxındır, lakin təəssüf ki, buna mane olurlar". "Report" xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Çinin "Phoenix" telekanalına müsahibəsində deyib.

Lakin onun fikrincə, bu vəziyyətə çatana qədər Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə etməli, ərazi bütövlüyünü və suverenliyini bərpa etməli oldu: "Azərbaycan həqiqətən də bunu etməyə məcbur idi, çünki biz ikili standartlarla, xarici hərbi təcavüz və hərbi işğal siyasətinə bəraət qazandırmağa çalışanlarla yanaşı, separatizmin təşviqi ilə də üzləşmişdik. Hər bir ölkə kimi bu, Azərbaycan üçün də qəbuledilməz idi. Biz sülhü və təhlükəsizliyi təmin etmişik. İndi Ermənistan və Azərbaycan sülhə heç vaxt olmadığı qədər yaxındırlar. Son altı ayda Ermənistan-Azərbaycan sərhədində iki ölkə tarixində ən sakit dövrlərdən biri olub".

H.Hacıyev deyib ki, Azərbaycan və Ermənistan sülh sazişi ilə bağlı irəliləyiş əldə edib: "Azərbaycanın yanaşması ondan ibarətdir ki, sülh Azərbaycanla Ermənistan arasındadır, çünki bu region bizə məxsusdur. Vaşinqtonda, Brüsseldə, Parisdə yox, iki ölkə arasında Cənubi Qafqaz regionunda sülh təmin edilməlidir".

# İRƏVAN-MOSKVA XƏTTİNDƏ GƏRGİNLİK PİK HƏDDƏ



**Rusiya-Ermənistan münasibətlərindəki mövcud vəziyyət müharibədən öncəki Kiyev-Moskva əlaqələri ilə müqayisə edilir. Ukrayna ssenarisi Ermənistanda da təkrar oluna bilər.**

FUAD ABASOĞLU

Son bir neçə ildə Ermənistan-Rusiya münasibətlərində yaşanan gərginlik özünün pik həddinə yaxınlaşır. Nikol Paşinyan hökuməti bir-birinin ardınca İrəvanın Kremldən uzaqlaşdırılması istiqamətində addımlar atır. İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyəti bəhanə edərək öncə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) Ermənistanın fəaliyyətinin dondurulması ilə başlayan proses İrəvanın mərkəzi hava limanından rusiyalı sərhədçilərin uzaqlaşdırılması ilə davam etdirildi. İndi isə Ermənistan rəsmiləri açıq şəkildə Rusiyanı "onların təhlükəsizliyini təmin etməmək"də ittiham edərək Gümrüdəki Rusiya hərbi bazalarının gələcəyini gündəmə gətirirlər. Sirr deyil ki, bu proseslərin əsas ideya müəllifləri Avropa və ABŞ-dir. Paşinyan hökumətinin hər bir anti-Rusiya addımı Qərb paytaxtlarında alqışla qarşılanır və müxtəlif vədlər verilir.

### BAKININ XƏBƏRDARLIQLARI ÖZÜNÜ DOĞRULDUR

Bölgədəki mövcud vəziyyət Azərbaycanı da yaxından maraqlandırır. Həssas durum bizim də milli maraqlarımızı təhdid edə biləcək hal almaqdadır. Rəsmi Bakı dəfələrlə İrəvanın mövcud siyasi kursunun bölgədəki sülh və sabitliyə ciddi əngəl olduğunu, bu siyasətin tək Azərbaycanın yox, digər bölgə dövlətlərinin də maraqlarına zərbə vurduğunu açıq şəkildə bəyan edib. Bölgə dövlətləri dedikdə isə Rusiya və İranın nəzərdə tutulduğu heç də sirr deyil.

Məlum dövlətlərdə ekspertlər səviyyəsində və siyasi kuluarlarda İrəvana qarşı ölçü götürülməsi, Ermənistanın cəzalandırılmasının labüdlüyü ilə bağlı dolaşan fikirlər artıq gizlədilmədən, həm də rəsmi səviyyələrdə bəyan edilir. Hələlik bu məsələdə Rusiya daha öndədir. İran isə Qərbi, NATO-nu özünün düşməni elan etməsinə baxmayaraq, nədənsə Ermənistanın bu qüvvələr tərəfindən casus mərkəzinə çevrilməsinə susqunluq nümayiş etdirir.

## LAVROVDAN PAŞİNYANA İTTİHAM

Konkret olaraq Moskvaya gəldikdə isə, Kremlin Paşinyan hökuməti və Ermənistanın hazırkı siyasi kursundan narazılığı xarici işlər naziri Sergey Lavrov tərəfindən kəskin şəkildə ortaya qoyulub.

O, Ermənistan baş nazirini ikitərəfli münasibətlərin pozulmasında ittiham edib. "Müxtəlif görüşlər üçün İrəvana gedəndə baş nazir Nikol Paşinyanla da danışmışam. Mənə elə gəlirdi ki, o, Rusiya ilə müttəfiqlik münasibətlərinin davam etdirilməsinin, KTMT və Avrasiya İqtisadi İttifaqı çərçivəsində qarşılıqlı fəaliyyətin Ermənistana hansı fayda gətirəcəyini hələ də başa düşür. Amma indi həm Təhlükəsizlik Şurasında, həm də parlamentdə Ermənistan rəsmiləri birbaşa deyirlər ki, bizə Avropa İttifaqına daha çox bel bağlamaq lazımdır. Onların sözlərinə görə, KTMT guya respublika qarşısında öz öhdəliklərini yerinə yetirmir", - nazir bildirib.

Lavrov vurğulayıb ki, KTMT İrəvanın maraqlarını çətin vəziyyətlərdə dəfələrlə müdafiə edib: "2021-ci ildə Azərbaycanla münasibətlərində gərginliyi azaltmaq üçün bu ölkəyə öz sülhməramlı missiyasını göndərməyə hazır olub".

Nazirin sözlərinə görə, Ermənistan uydurma bəhanələrlə Rusiya ilə münasibətlərin pozulmasına çalışır. Ermənistanda mövcud vəziyyət nikbinlik yaratmır.

Faktiki olaraq bu, Rusiyanın Ermənistana diplomatik müharibə elan etməsidir.



Sergey Lavrov

## UKRAYNA SSENARİSİ TƏKRARLANA BİLƏR

Bir çox ekspertlər Rusiya-Ermənistan münasibətlərindəki mövcud vəziyyəti müharibədən öncəki Kiyev-Moskva əlaqələri ilə müqayisə edirlər. Bildirilir ki, Kremlin Ukraynada müharibəyə başlamasının əsas səbəblərindən biri də Qərbin bu ölkədəki anti-Rusiya fəaliyyəti idi. Eyni vəziyyət hazırda Ermənistanda da müşahidə edilir. Ukraynadakı müharibənin davam etdiyi bir zamanda öz maraqlarını hərbi müdaxilələrlə qorumaqdan çəkinmədiyini isbat edən Rusiyanın Ermənistana da hücumu istisna deyil. Bu vəziyyət isə Cənubi Qafqazın yenidən müharibə poliqonuna çevrilməsi deməkdir.

31 MART SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ YAD EDİRİK

# ƏSLA UNUTMAMALIYIQ!

Qan yaddaşımız olan 31 mart erməni vəhşiliyinin növbəti mərhələsi idi. Bu tarix dərindən öyrənilməli və həqiqətlər bu cinayətləri törədənlərin üzünə çırpılmalıdır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

31 mart Azərbaycanlıların Soyqırımı Günüdür. 1918-ci ilin 30 mart - 3 aprel tarixləri arasında Bakı, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə, xüsusi qəddarlıqla qətlə yetiriblər. Rəsmi mənbələrə əsasən, bu soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı amansızcasına öldürülüb, on minlərlə insan itkin düşüb.

Mart soyqırımının törədilməsində əsas məqsəd həm də tarixi ərazilərimiz olan İrəvan və Zəngəzurun azərbaycanlılardan təmizlənməsi idi. Tarixi mənbələr tək İrəvan və Zəngəzurda 10 minə yaxın azərbaycanlının qətlə yetirildiyini, 60 min soydaşımızın isə öz doğma ellərindən didərgin düşdüyünü göstərir.

### DƏYİŞMƏYƏN ERMƏNİ XİSLƏTİ

Bu gün məlum hadisələrdən bir əsrdən də çox vaxt keçib. Lakin bu müddət ərzində erməni daşnaklarının, "miatsum" ideyası ilə böyüyən ermənilərin Azərbaycan dövlətinə və xalqına qarşı münasibəti əsla dəyişməyib. 1992-ci ilin 26 fevralında Xocalıda əliyalın insanlara, qadınlara, qocalara və uşaqlara qarşı törədilən soyqırımı aktı zamanı tək biz yox, bütün dünya bir daha erməni xislətinin dəyişmədiyinin şahidi oldu. 106 il əvvəl baş verən qırğınları öz gözləri ilə görən Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdı: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər."

Bəli, biz bir almanın yüz il əvvəl gördüklərini Birinci Qarabağ müharibəsində Xocalı, Qaradağlı, Meşəli faciələri, İkinci Qarabağ savaşı zamanı isə Bərdə və Gəncədə törədilən terror aktlarının timsalında bir daha yaşadıq.

## Soyqırımı ilə bağlı qərarlar

Xalqımızın yaşadığı bu dəhşətli faciənin unudulmaması, dünyaya tanıdılması istiqamətində dövlətin ali rəhbərliyi səviyyəsində bir sıra mühüm qərarlar verilib.

1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib. 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Prezident İlham Əliyev tərəfindən 18 yanvar 2018-ci ildə "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzalanıb.

### BİZ ARTIQ QALİB XALQIQ

Biz artıq qalib xalqıq. Ərazi bütövlüyü, suverenliyi tamamilə bərpa edilmiş müstəqil dövlətə sahibik. Qalib ordumuz, güclü iqtisadiyyatımız, cəmiyyətimizdə sarsılmaz birliyimiz və ali rəhbərliyə böyük inam, etimad var. Qeyd etdiklərimizin hər birinə müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, Silahlı Qüvvələrimizin döyüşərək, minlərlə şəhid verərək əldə etdiyi tarixi zəfərlə nail olmuşuq. Bu gün Azərbaycan vətəndaşı olan hər bir kəs əminliklə bir daha belə faciələrlə üzləşməyəcəyinə inanır. Çünki sahib olduqlarımız xalqımız və dövlətimizin təhlükəsizliyini təmin edir. Bu gün sərhədlərimizi güclü, peşəkar, qalib Azərbaycan Ordusunun nəfərləri qoruyur.

Bununla belə, xalq olaraq zəfərlərimizlə bərabər keçmişdə yaşadıqlarımızı, üzləşdiyimiz soyqırımı aktlarını əsla unutmamalıyıq. Gələcək nəsillərin də unutmasına imkan verməməliyik. Dörd il öncə Azərbaycan xalqının dəmir yumruğu ilə beli qırılan erməni neonasizmini, erməni revanşizmini yenidən dirçəltmək cəhdlərini müşahidə edirik. Nəyin bahasına olursa-olsun bölgəmizdə sülh və sabitliyi istəməyənlərin Ermənistanı sürətlə silahlandırdıqlarının, müxtəlif vədlərlə İrəvanı yeni bir müharibəyə həvəsləndirənlərin olduğunu görürük. Sirr deyil ki, bu gün 31 mart soyqırımı, Xocalı soyqırımının müəlliflərinin qarşısında sədd çəkən, Azərbaycana qarşı nifrətlərini içlərində boğmağa səbəb verən əsas güc birliyimizdir.

### SAXTA ERMƏNİ TARİXİNİN İFŞASI

Qan yaddaşımız olan 31 mart həm də tarixi torpaqlarımız, keçmişimiz, mədəniyyətimiz haqqında dünyaya bir mesajdır. Oğurlanan keçmişimiz üzərində qurulan saxta erməni tarixinin ifşası, İrəvan, Zəngəzur, Göyçə, Qarabağ da daxil bu torpaqların əsl sahiblərinin bizlər olduğu həqiqətdir. Bu həqiqəti dünyaya çatdırmaq, baş verənlərə hüquqi və ədalətli qiymətin verilməsinə nail olmaq həm də gələcəkdə bölgədə sülh və sabitliyin təmini deməkdir.

Bir daha soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edirik.



ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# ERMƏNİSTANIN NÖVBƏTİ SAHİBİNİ DƏYİŞMƏ CƏHDİ

**ABŞ siyasi, NATO hərbi, Avropa İttifaqı isə iqtisadi təminatları üzərlərinə götürməklə, Ermənistan vasitəsilə yeni regional arxitekturanın cızılmasına start verirlər. İri miqyasda bu, Rusiya və İranın maraqlarına, sırf bölgə daxilində isə Azərbaycanın təhlükəsizliyinə qarşı atılan addımdır.**



RÜSTƏM QARAXANLI

Aprelin 5-də Ermənistan baş naziri Nikol Paşinyanın ABŞ dövlət katibi Entoni Blinken, NATO-nun baş katibi Yens Stoltenberq və Avropa Komissiyasının rəhbərli Ursula Fon der Lyayenlə gözlənilən görüşü tək bu ölkənin deyil, bütövlükdə bölgənin firavan gələcəyi üçün ciddi təhlükədir. Artıq region dövlətlərinin səsləndirdikləri xəbərdarlıq və narahatlıq rəsmi İrəvanın bu addımının hansı fəsadlara səbəb ola biləcəyinin göstəricisidir. Bu görüş faktiki olaraq iştirakçıların Ermənistanın təhlükəsizliyinə təminat vermələrini əks etdirən hərbi-siyasi paktdır. ABŞ siyasi, NATO hərbi, Avropa İttifaqı isə iqtisadi təminatları üzərlərinə götürməklə, Ermənistan vasitəsilə yeni regional arxitekturanın cızılmasına start verirlər. İri miqyasda bu, Rusiya və İranın maraqlarına, sırf bölgə daxilində isə Azərbaycanın təhlükəsizliyinə qarşı atılan addımdır.

### İKİNCİ ANTİ-RUSİYA CƏBHƏSİ

İrəvanın qaba geosiyasi addımına geniş anlamda baxsaq, bu, Qərbin Ermənistandan istifadə etməklə Rusiyaya qarşı ikinci cəbhəni açması deməkdir. NATO-nun bu region dövlətlərindən birinin təhlükəsizliyinə təminat verənlərin siyahısında olması özü-özlüyündə Cənubi Qafqaz üçün tam yeni və fərqli təzahürdür. Gürcüstan illərdir Qərbin əsas hərbi-siyasi bloku ilə kifayət qədər dərin kooperasiyadadır, ancaq NATO heç vaxt ondan istifadə etməklə belə riskli kampaniyanın iştirakçısı olmayıb. İndi Paşinyan hakimiyyətinin bölgəyə ənənəvi oyunçuların etirazına rəğmən yad geosiyasi ünsürləri gətirməsi Gürcüstan nümunəsində olduğu kimi, tək Ermənistanın dövlətçiliyinə təhlükə deyil, hətta daha geniş anlamda regional kollapsa gedən yolun başlanğıcıdır.



## MOSKVADA NECƏ HƏZM EDƏCƏKLƏR?

Bu addımın Rusiyanın Ukraynadakı hərbi kampaniyası fonunda atılması bir sıra ehtimallara yol açır. Əgər Qərb Ermənistanı ayaq altına alıb Rusiyanın cənubundan yeni cəbhə açırsa, deməli, ABŞ-də və Avropada Moskvanın Ukrayna bataqlığında ilişib zəiflədiyini düşünürlər ki, bu qədər riskli əməliyyata start verirlər. NATO-nun Ermənistana gəlməsi Rusiyanın buradakı hərbi mövcudluğunu şübhə altına alır. Ermənistan artıq rus sərhədçilərinin illərlə cavabdeh olduqları İrəvan aeroportunu tərk etməsi tələbini qoyub və xəbərlərə görə, bu ilin avqustundan etibarən hava limanında sərhəd-keçid prosedurunu özü həyata keçirəcək. Bunun ardınca aydındır ki, növbə İran və Türkiyə ilə sərhəddə duran rus hərbçilərinə çatacaq. Sonda isə Ermənistandakı hərbi bazaya. İki əsrlik rus hərbi qalasının NATO tərəfindən ələ keçirilməsini Moskvada necə həzm edəcəklər? Ukraynanın cəzalandırılması məhz belə addımlar, Fransa, Britaniya və Almaniya ilə hərbi paktın imzalanmasına görə baş vermədimi?

### İRAN NİYƏ SUSUR?

İranla sərhəddə ABŞ-nin hərbi-siyasi istehkamının bərqərar olması Tehranı hansı addımları atmağa məcbur edəcək? Güman ki, qarşıdakı aylar ərzində bu sualların cavabını praktiki formada görməli olacağıq. Qərbin İŞİD kimi hərbi-terrorçu alət vasitəsilə Suriyada hakimiyyəti dəyişmək cəhdinin baş tutmamasında İranın oynadığı rolu nəzərə alsaq, bu cavabın nədən ibarət olduğunun konturlarını təsəvvür edə bilərik. İranın Ermənistanda da təzyiq rıçaqları az deyil.

Rəsmi İrəvanın bu addımı son üç ildə Azərbaycanın regional oyunçuları dəfələrlə xəbərdar etməkdə haqlı olduğunu göstərir. Tehranın tez-tez təkrarladığı "qırmızı xətt"i gözlədiyi kimi Azərbaycan deyil, başına sığal çəkdiyi Ermənistan pozur. Azərbaycanın tarixi torpaqlarından keçməklə Naxçıvana yol tələb etməsi idi "qırmızı xətt"in tapdanması, yoxsa bu gün NATO casuslarının İran sərhədinə toplaşmaları? Anons edilmiş 5 aprel görüşü rəsmi Tehranın son üç ildəki gözləntilərinin üzərindən xətt çəkmiş olur.

## İRƏVANIN REVANŞİZM ÜMİDLƏRİ

Ermənistan növbəti dəfə sahibini dəyişməyə hazırlaşır. Əgər ictimai rəydə Paşinyan hökumətinin Qərbə doğru sərt reveransına qarşı ciddi müqavimət izlənilmirsə, deməli, bu regional geosiyasi çevriliş cəhdi tək hakimiyyətin kaprizi deyil, həm də erməni cəmiyyətinin istəyidir. Bu, əslində erməni xalqının tarixi xüsusiyyətidir - özünə himayədar axtarmaq. Rəsmi İrəvan nümayəndələrinin son üç ildə səsləndirdikləri bəyanatlar istisnasız olaraq yeni haminin axtarışına yönəlib. Ermənistanın baş naziri dünya liderləri ilə görüşlərində çəkdirdiyi şəkillərdə belə sanki bu mesajı verir: əvvəl Vladimir Putinin, sonra Emmanuel Makronun qaldırdıqları çətirin altına girməsi dövlət başçısının ölkəsinin və xalqının təhlükəsizliyinə "ənənəvi yolla" təminat axtardığını göstərir.

Erməni xalqının növbəti dəfə sahib dəyişmək cəhdi tək daha yaxşı və təhlükəsiz həyat üçün deyil, həm də böhrandan çıxdıqdan sonra qonşulara qarşı ərazi iddialarına dəstək qazanmaq niyyətidir. Erməni cəmiyyəti bu virusa əsrlər boyu yoluxub və ondan belə tezliklə qurtulacağını gözləmək sadəlöhvlük olardı. Odur ki, Paşinyan hakimiyyətinin Qərbə tərəf dönüşü tək müdafiə deyil, həm də zamanı gəldikdə hücum etmək hesablarına söykənir. Məğlub Ermənistan üçün revanşizm ümidlərini əvvəl Fransa verdi. İndi isə NATO-nun bu missiya altına girməsi faktiki olaraq qonşu ölkənin torpaqlarını 30 il ərzində işğalda saxlayan ölkənin hərbi müqavimətinin artırılmasına təkandır. Ermənistan yenə də tarixi rolunu və funksiyasını icra edir.



# ERMƏNİSTANI PARÇALAYAN DÖRD KƏND

İşğal altında olan dörd kəndin Azərbaycana qaytarılması iki ölkə arasında münasibətlərin normallaşmasında irəliyə doğru addım sayıla bilər. Bu isə Qərbi, xüsusən də Cənubi Qafqazda gərginlik ocağı yaratmağa çalışan Fransanı ciddi şəkildə narahat edir.

F.ABASOĞLU

Artıq iki həftədir ki, Ermənistan cəmiyyəti baş nazir Nikol Paşinyanın Qazaxın Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılmasına dair bəyanatı ilə bağlı müzakirələrlə çalxalanır. Baş nazirin bu açıqlaması müxalifətin yenidən canlanmasına səbəb olub. Təsadüfi deyil ki, Nikolun Tavuş bölgəsinin yerli sakinləri ilə görüşündən sonra erməni müxalifəti, Qarabağ separatçılarının tör-töküntüləri və kilsə yenidən birləşib. Tərəflər erməni siyasi elitasını Ermənistan ərazisini Azərbaycana "bağışlamaq"da ittiham edir və növbəti hədəfin Zəngəzur və İrəvan olacağı ilə bağlı sərsəm fikirlərlə cəmiyyəti dövlətə qarşı qaldırırlar.

### AZƏRBAYCANIN HAQLI TƏLƏBİ

Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin erməni həmkarı Mher Qriqoryanla bu ilin martında keçirdiyi görüşdən sonra rəsmi Bakı işğal edilmiş dörd eksklav olmayan kəndin mübahisəsiz və dərhal azad edilməsini tələb edib. Eyni zamanda, Prezident İlham Əliyev də məsələ ilə bağlı sərt mövqeyini ortaya qoyub. Erməni hökuməti bu tələbi yerinə yetirməkdən başqa çarəsi olmadığını həm baş nazir, həm də digər siyasi xadimləri vasitəsilə üstüörtülü şəkildə cəmiyyətə aşılayır. Hakim "Mülki müqavilə"nin deputatları və siyasətçiləri hərəkətə keçərək, baş nazirin açıqlamasını dəstəkləyən fikirlər irəli sürürlər.

## Paşinyan müharibə ilə qorxudur

Kəndlərin geri qaytarılması ilə bağlı söhbət mediaya sızdıqdan sonra baş nazir Tavuş bölgəsinə səfər edərək, sakinlərlə görüş keçirib. Maraqlıdır ki, görüş zamanı çəkilişin aparılmasına icazə verilməyib və sakinlərə salona mobil telefonla daxil olmaq qadağan edilib. Bununla da Paşinyan oradakı söhbətlərin səsyazı və video formasında kənara sızmasının qarşısını alıb. Ehtimal edilir ki, görüş zamanı o, sakinlərə sözgüdən kəndlərin əzəli Azərbaycan ərazisi olduğunu bildirib və yaxın zamanlarda boşaldılmasının vacibliyindən danışıb. Eyni zamanda, klassik müharibə yalanını rəhbər tutan hökumət başçısı qeyd edib ki, kəndlər tez zamanda geri qaytarılmasa, müharibə başlaya bilər. Bu müharibədən məğlub çıxmış erməni cəmiyyəti üçün əməlli-başlı siqnal sayılır. Hakimiyyətyönlü medianın məlumatına görə, hazırda Ermənistanın 3-cü ordu korpusunun sözügedən kəndlərdən çıxarılması məsələsi müzakirə edilir. Bu isə mümkün hərbi toqquşmanın qarşısını almaq üçün nəzərdə tutulub. Çünki son günlər erməni müxalifətinin, xüsusən də rusiyayönümlü qanadın müxtəlif simaları orduya müraciət edərək, heç bir halda ərazini tərk etməməyə, silahlı qarşıdurmaya hazır olmağa səsləyir.



### İQTİDARIN AÇIQLAMALARI

Bununla belə, Ermənistan iqtidarının müxtəlif simaları tez-tez açıqlama verərək, erməni cəmiyyətini düzgün yönləndirmək, sözügedən kəndlərin Azərbaycan ərazisi olduğu fikrini aşılamağa başlayıblar. Məsələn, Tavuş qubernatoru Ayk Qalumyan bildirib ki, onların rayonunda Azərbaycana aid kəndlər var. "Hraparak" qəzeti isə dörd kəndin geri qaytarılmasının Ermənistan üçün problem yaratmayacağı fikrini ortaya atıb. Erməni deputat Ovik Ağazaryan qeyd edib ki, Tavuşda Azərbaycan Sovet Respublikasına məxsus yaşayış məntəqələri var və onlar geri qaytarılmalıdır, bu, təslim etmək demək deyil.

### MÜXALİFƏTİN YERSİZ TEZİSLƏRİ

İstənilən qarışıqlıqda hökumətə qarşı cəbhə alan erməni müxalifəti üçün də dörd kənd mövzusu "göydəndüşmə" olub. Müxtəlif tezislər ortaya atılıb. İddialara görə, sözügedən kəndlərin geri qaytarılması Ermənistanı İran və Gürcüstanla birləşdirən magistral yola nəzarətin Azərbaycana keçməsi deməkdir və bu da ölkə üçün ciddi itki sayılır. Digər bir tezis isə "Şərəfim var" fraksiyasının deputatı Tiqran Abramyan tərəfindən səsləndirilib. O qeyd edib ki, kəndlərin qaytarılması Lori rayonu üçün təhlükədir və ərazidə Azərbaycan Ordusunun yerləşməsi bu rayonun bəzi kəndlərinin də əldən çıxması ilə nəticələnə bilər. Eyni zamanda, İcevan-Berd avtomobil yolunu da artıq unutmaq lazım gələcək.

Kilsə aktivləşərək, baş naziri ölkəni satmaqda, qədim erməni ərazilərini peşkəş verməkdə ittiham edib.

## RƏSMİ İRƏVANIN BƏNZƏR RİTORİKALARI ƏVVƏLLƏR DƏ MÜŞAHİDƏ EDİLİB

Təbii ki, dörd kəndin Azərbaycana qaytarılması iki ölkə arasında münasibətlərin normallaşmasında irəliyə doğru addım sayıla bilər. Bu isə Qərbi, xüsusən də Cənubi Qafqazda gərginlik ocağı yaratmağa çalışan Fransanı ciddi şəkildə narahat edir. Təsadüfi deyil ki, İrəvanın Nor Nork inzibati rayon polis idarəsinə əl qumbarası ilə hücum da 25 mart tarixinə təsadüf edib və bir sıra erməni siyasətçilər məsələnin Qərb xüsusi xidmət orqanları tərəfindən törədildiyinə və bunun baş nazirə açıq-aşkar mesaj olduğuna işarə ediblər. Görünür, Bakı ilə İrəvanın yaxınlaşmasının Qərbə sərf etmədiyini artıq erməni siyasətçiləri də dərk edirlər.

Qeyd etmək yerinə düşər ki, davamlı sülhün əldə edilməsi üçün sərhədlər müəyyənləşdirilməlidir. Bunun üçün isə işğal altında qalan kəndlərin geri qaytarılması sərhədlərin delimitasiyası istiqamətində əməli addım sayıla bilər. O da mümkündür ki, Paşinyan dörd kəndin Azərbaycan ərazisi olduğunu deməklə sadəcə vaxt uzadır. Çünki bənzər ritorikalar əvvəllər də müşahidə edilib. Amma istisna edilmir ki, artıq baş nazir həqiqəti anlayıb və Azərbaycanın haqlı tələbi ilə kəndlərin qaytarılmasının çox vacib olduğunu bilir. Bunun üçün isə həm müxalifəti, həm də havadarlarını bu prosesə hazırlayır. Hadisələrin gedişatı isə Paşinyanın oyun oynayıb-oynamadığını sübut edəcək. Oyun olacağı təqdirdə isə Azərbaycanın hansı addımı atacağı gün kimi aydındır...

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# “QANLI CÜMƏ”NİN HƏDƏFİ




Rusiya ərazisində Mərkəzi Asiyadan olan miqrantların sıxışdırılması halları yaşanır. Vəziyyət o qədər mürəkkəbdir ki, Tacikistan səfirliyi Rusiyadakı vətəndaşlarına evlərindən çıxmamaqla bağlı xəbərdarlıq edib.



AZƏR NURİYEV

Rusiya tarixinə “qanlı cümə” kimi düşən “Crocus City Hall”da törədilən terror dünyanın diqqət mərkəzindədir. Xüsusi qəddarlıqla törədilən terror qurbanlarının sayı 140-ı keçib. Terrorla bağlı təfərrüatlardan çox danışılıb, ən müxtəlif ehtimallar səslənib. Təsdiqini tapan tək fakt odur ki, terroru həyata keçirən şəxslər həbs olunub və onlar hazırda istintaq tərəfindən dindirilirlər. İndi əsas məsələ sifarişin təşkilatçılarının müəyyən olunmasıdır. İcraçılar ilkin ifadələrində sifarişin sadəcə naməlum şəxslər tərəfindən verildiyini, tapşırıq və silahları onlardan aldıqlarını vurğulayıblar. Bütün bunlar onu deməyə əsas verir ki, sifarişçilərin kimliyi sirr olaraq qalacaq.

Digər bir məsələ terror aktının mümkün hədəfləri ilə bağlıdır. Burada müxtəlif versiyalar - iqtisadiyyata zərbə vurulmasından tutmuş, ölkədə xaos yaratmaq, diqqəti daxili təhlükəsizlik məsələlərinə yönəltmək, Rusiya vətəndaşlarının təhlükəsizliyinin daim təhdid altında olduğunu isbatlamaq və sair var. Eləcə də, “Crocus City Hall”a hücumda rus olmayan etnik qrupun, taciklərin adının hallanması Rusiyada etnik qarşıdurmanın yaranmasına zəmin hazırlaya bilər. İstənilən halda, baş verənlər yaxşı heç nə vəd etmir. Müəyyən qüvvələr ən təhlükəli ssenariləri işə salıb və bu, faktdır.







**PUTİN “HƏ”, KİYEV “YOX” DEYİR**

Maraqlıdır ki, Rusiya Prezidenti Vladimir Putin hücumu Ukrayna ilə bağlasa da, etiraf edib ki, istintaqın bu versiyanın sübut edən dəlilləri yoxdur. Putin deyib ki, bu cinayət radikal islamçıların əli ilə törədilib: “Biz Rusiyaya və onun xalqına qarşı bu şər əməlin kimin əlləri ilə törədildiyini bilirik. Bizi sifarişçi maraqlandırır”. Putinin sözlərinə görə, bu, Rusiyaya qarşı “neonasist Kiyev rejiminin əlləri ilə” mübarizə aparanların silsilə hücumunun zəncirində yalnız bir həlqə ola bilər. Rusiya prezidenti bu sözləri ilə kimi nəzərdə tutduğunu açıqlamayıb.

Öz növbəsində Ukrayna Prezident Ofisinin rəhbərinin müşaviri Mixaylo Podolyak hesab edir ki, “Crocus City Hall”dakı terror aktında axtarılan “Ukrayna izi” Kremlə heç nə qazandırmayacaq. O xatırladıb ki, hələ 2016-2018-ci illərdə Rusiya təbliğat maşını Ukraynanı bir sıra terror təşkilatlarıyla əlaqələndirməyə çalışıb: “Bu, Ukraynanın belə yaraqlılara sığınacaq verdiyini göstərmək üçün genişmiqyaslı təbliğat kampaniyası idi. Lakin Ukrayna qlobal terrordan mümkün qədər uzaqdır - HƏMAS və “Taliban”ı sözün əsl mənasında maliyyələşdirmiş və onların qlobal bazarda mövcudluğunu qanuniləşdirmiş Rusiyadan fərqli olaraq...”.

## MƏRKƏZİ ASİYA MİQRANTLARI HƏDƏFƏ ALINIR

Ən təhlükəlisi odur ki, artıq Rusiya ərazisində Mərkəzi Asiyadan olan miqrantların sıxışdırılmasına yönələn insidentlər baş verir. Məsələn, Rusiyanın Uzaq Şərqindəki Blaqoveşşensk şəhərində mərkəzi asiyalı şəxsin sahib olduğu kafenin yandırıldığı xəbər verilib. Rusiyanın qərbindəki Kaluqa şəhərində üç tacik miqranta hücum edilib. Onlardan biri xəstəxanaya yerləşdirlib. Moskva regionunda bir qrup gənc dörd tacik mirqrantı döyərək sərnişin qatarından atıb. Rusiyanın “Baza” teleqram kanalı yazır ki, DİN-in bir sıra regional idarələri miqrantların sənədlərinin və onların qaldıqları yataqxanaların yoxlanması üçün xüsusi briqadalar yaradıblar.

Vəziyyət o qədər mürəkkəbdir ki, Tacikistanın Moskvadakı səfirliyi Rusiyadakı vətəndaşlarına evlərindən çıxmamaqla bağlı xəbərdarlıq edib. Səfirlik vurğulayır ki, vətəndaşlar qisas insidentlərinin qurbanı ola bilərlər.

Tacikistanın Demokratik Partiyası və Tacikistan parlamentinin bəzi deputatları Rusiya Prezidenti Vladimir Putini ksenofobiya zəminli bu tipli zorakılıqların qarşısını almağa çağırıblar.

## ƏN TƏHLÜKƏLİ SSENARİ İŞƏ DÜŞÜR?

Qırğızıstan da öz vətəndaşlarını Rusiyaya səfərlərdən çəkindirən bəyanatla çıxış edib. Rusiya insan haqları müdafiəçisi Valentina Çupik deyib ki, Qırğızıstan, Tacikistan və Özbəkistan vətəndaşlarından polis tərəfindən “qanunsuz saxlanılmaları” ilə bağlı bir neçə gün ərzində 1018 şikayət daxil olub. Çupik bildirib ki, onlardan bəziləri polis tərəfindən döyülüb, bəziləri isə Rusiyadan deportasiya ediliblər. Bişkekdə yaşayan insan haqları müdafiəçisi Aziza Abdirasulova bildirib ki, son hücumlardan sonra Mərkəzi Asiyadan olan miqrantlar daha çox məhdudiyyət və yoxlamalarla üzləşirlər.

Qeyd olunur ki, Rusiyada bundan sonra iki mövzu gündəmə gətirilə bilər. Birincisi, Rusiya ərazisinə daxil olan Mərkəzi Asiya ölkələrinin vətəndaşlarına



qarşı viza rejiminin tətbiqi və ya onların xüsusi qaydada yoxlanılması tələb ediləcək. İkincisi, başda paytaxt Moskva olmaqla Rusiyanın şəhərlərində çalışan Mərkəzi Asiya vətəndaşlarının bir qisminin deportasiyası tələb olunacaq. Lakin Rusiyanın müttəfiq ölkələrin vətəndaşlarına qarşı viza rejiminin tətbiqi Mərkəzi Asiyada mənfi qarşılana bilər. Miqrasiya qaydalarının sərtləşdirilməsi isə Rusiyanın özünə əlavə problemlər yaradacaq. Çünki Rusiyanın miqrant işçilərə ehtiyacı var.

# “PULUN YOXDUR, MAŞIN SÜRMƏ”




Bakının mərkəzi hissələrindəki parkinq qiymətlərinin kəskin qaldırılması ciddi müzakirələrə yol açıb. Kirayədə qalanlar, iş yerlərinə avtomobillə getməyə məcbur olanların yeni parkinq qaydaları ilə bağlı narazılıqları səngiməmiş, indi də bu məsələ ilə bağlı fikirlər heç də birmənalı deyil.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yeddi aya yaxındır ki, istifadəyə verilən “AzParkinq” mobil tətbiqi şəhər əhalisinin rahatlığının təmin edilməsinə hesablansa da, sistemdən narazı qalanların sayı günü-gündən artır. Xatırlayırsınızsa, mobil tətbiq istifadəyə verilərkən “cəlbedici marketinq siyasəti həyata keçirilir”, “bu gündən nəqliyyat vasitələrinin parklanmasına görə ödənişlərin yığımı nağdsız olacaq”, “sürücülər boş parklanma yerlərini tapa, vaxtlarına qənaət edə biləcəklər” kimi qulağa xoş gələn məqamlar diqqətə çatdırılırdı. Belə də oldu. Amma qiymətlər, gözlənilən, lakin həyata keçməyən güzəştlər əhalini narazı salır.

### “SİSTEM BELƏ İŞLƏMƏMƏLİ İDİ”

İnformasiya Texnologiyaları üzrə mütəxəssis Elvin Abbasov “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, sistem əslində belə işləməməli idi: “Bəzi ölkələrdə parklanma əraziləri bələdiyyələrə aiddir. Bizdə isə belə deyil. Biz əslində indiki “AzParkinq”in analoji təcrübəsini bir neçə il öncə yaşamışdıq. Bakının müəyyən ərazilərində kiosklar var idi, insanlar park edəndə ən yaxın kioskdan pullarını ödəyirdilər. Həmin vaxt Moskvada, Londonda artıq mobil telefonlarla müəyyən iş dövriyyəsi olan parklanma yerləri yaradılmışdı. Biz o zaman da gözləyirdik ki, xarici analoji təcrübələr istifadə olunacaq, amma olmadı və bir müddət sonra kiosklar da ləğv edildi”.

### “PARKLANMA XİDMƏTİ GƏLİR MƏNBƏYİ DEYİL”

Mütəxəssis bildirir ki, hazırkı sistemin tətbiqində əsas məqsədə fokuslanmaq lazımdır. Parklanma xidməti gəlir mənbəyi deyil: “Dünya ölkələrində də şəhərin mərkəzi hissələrinə girişi azaltmaq üçün qiymətlər digər ərazilərdən yüksəkdir. Bu, normaldır və məqsəd camaatdan daha çox pul almaq deyil. Təəssüflər olsun ki, bizdə problemlər var. Məsələn, bəzi yerlər var ki, əvvəllər müəyyən qadağanedici zolaqlar olsa da, sürücülər orada qanunsuz park edirdi və tıxac yaradırdı. “AzParkinq” problemi həll etmək üçün bunu ləğv etmədi, sadəcə orada parklanmanı qanuniləşdirdi. Belə vəziyyətlərdə insanlar düşünür ki, məqsəd daha çox pul qazanmaqdır”.



## “Yeniliklər insanların iqtisadi vəziyyətinə uyğun olmalıdır”

**Həmsöhbətimiz deyir ki, parklanmadakı yeniliklər insanların iqtisadi vəziyyətinə uyğun olmalıdır: “İnsanların həyat standartları, maaş göstəriciləri nəzərə alınmadan qoyulan qiymətlər təbii ki, tənqidə yol açacaq. Bir təcrübə “a” ölkəsindən “b” ölkəsinə inteqrasiya ediləndə olduğu kimi deyil, müəyyən motivlərə uyğun həyata keçirilməlidir. Biz ya olduğu kimi gətiririk, ya da daha da ağırlaşdırırıq. İnsanların iqtisadi vəziyyəti nəzərə alınmalıdır. Sosial şəbəkələrdə “pulun yoxdur, maşın sürmə” deyənlərə də rast gəlirik”.**

### SİSTEM KİRAYƏDƏ YAŞAYANLARIN HÜQUQLARINI POZUR?

**Parkinqlə bağlı digər problem kirayə yaşayanlar və qeydiyyatsız evlərdə olanların tətbiqdə sakin hesab olunmaması, güzəştlərdən faydalana bilməməsidir. Sakinlər güzəştlərdən faydalana bilməmələrini hüquqlarının pozulması kimi qiymətləndirirlər.**

**Hüquq müdafiəçisi Sahib Məmmədov deyir ki, yaşadığın ərazidə qeydiyyatda olmamaq, kirayə müqaviləsi bağlamamağın özü qanun pozuntusudur: “Qanunsuz bir hərəkəti başqa bir qurum tərəfindən legitimləşdirmək düzgün deyil. Bəli, Bakıda 100 minlərlə insan qeydiyyatsız yaşayır. Evlər var ki, daşınmaz əmlak kimi dövlət əmlakının reyestrinə daxil edilməyib. Bu problemdir, amma parklanma sisteminin qeydiyyatsız, yaxud müqaviləsiz kirayədə yaşayanı sakin kimi tanımaması hüquq pozuntusu deyil”.**

### AÇIQ QALAN SUALLAR

**Bu sistem tətbiq olunduqda insanlara iş yerlərinin ərazisində də güzəştlərin tətbiqi planlaşdırılırdı. Çünki bir şəxs əgər gün ərzində doqquz saat işdə olmalıdırsa, hər gün üçün 10-12 manat parklanma üçün ödəniş etməsi xərclərinə ciddi şəkildə təsir edir. S.Məmmədov deyir ki, bu, insanlara ciddi problem yaradır: “Məsələn, ən azı tədris mərkəzləri, kolleclər, universitetlər, hansıların ki, parklanma yerləri yoxdur, burada parklanma ya ümumiyyətlə pulsuz edilməlidir, ya da güzəştlər tətbiq olunmalıdır. Çünki müəllimlərin maaşı bu qiymətləri ödəməyə imkan vermir. Lakin onlar bununla bağlı müraciət etsələr də, birmənalı olaraq imtina verirlər, bu da açıq qalan sualdır”.**

**Foto:** Sabir Məmmədov/Global Media Group



Sahib Məmmədov

“Qış parkı”ndakı parkinq qiymətləri **170%** artırılır

## GÜZƏŞTLƏR NƏZƏRDƏ TUTULUR

Güzəşt gözləyərkən, şəhərin mərkəzindəki avtodayanacaqların qiymətinin fantastik həddə bahalaşması da ciddi narazılıq yaratdı. Məsələn, Bakının ən böyük avtomobil dayanacağı hesab olunan “Qış parkı”ndakı parkinq qiymətləri nə az, nə çox - birdən-birə 170% artırılır.

Nəqliyyat eksperti Yasin Mustafayev deyir ki, qiymətlər tələb və təklifə görə müəyyənləşir. Onun sözlərinə görə, güzəştlərin tətbiq edilməsi ilə bağlı məsələyə də yəqin ki, gələcəkdə diqqət ayrılacaq: “Elə məsələlər var ki, mərhələlərlə həllini tapır. Hazırda güzəştlərlə bağlı araşdırmalar aparılır. Yaşadığı, işlədiyi ərazinin imkanlarından asılı olaraq sürücülərə güzəştlərin tətbiq edilməsi nəzərdə tutulur”.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi isə deyir ki, Hökumət evi, “Qış parkı” və “Mərkəzi park”da yeraltı parklanma məntəqələri üzrə parklanma fəaliyyətindən daxilolmalar xərcləri tam qarşılamır: “Parklanma məntəqələrində mövcud avadanlıqlar (lift, eskalator, ödəniş terminalları, yanğından mühafizə sistemi və s.) qeyri-qənaətbəxş vəziyyətdədir. Onların təmiri və yenilənməsi üçün əsaslı vəsait qoyuluşu tələb olunur. Həm yaranan zərərin azaldılması, eləcə də əhaliyə göstərilən xidmət səviyyəsinin artırılması məqsədilə mövcud tariflərin dəyişdirilməsi məqsədəuyğun hesab edilib”.




ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Nicat Əhmədli:** "İt sahibinə oxşayar" deyimi düzdür. İtin xasiyyətini sahibi istədiyi kimi formalaşdıra bilər. Ona baxdıqda onun sahibinin də xasiyyətini təxmin etmək olur. Bu səbəbdən itlər təlimə tez verilməlidirlər ki, xarakterlərini təlimçi formalaşdırsın".

## KİNOLOQ SEVİMLİ DOSTLARIMIZA DÜZGÜN QULLUQ QAYDALARINI AÇIQLAYIR

# "HƏR İNSANA UYĞUN İT CİNSİ VAR"





"Elə bir avadanlıq yoxdur ki, itləri əvəz etsin. İtlərin burnunda 200 min qoxu respiratoru olur. Bu göstərici insanda maksimum iki mindir. Bir it binaya daxil olduqda hər qoxunu hiss edir". Bu fikirlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının partlayıcı və sursat axtarışı üzrə xüsusi hərbi hissəsinin baş kinoloqu olmuş Nicat Əhmədlinindir. Hazırda itlərin təlimi ilə məşğul olan N.Əhmədli ilə sevimli dostları və onların tərbiyəsi haqqında danışdıq.

### "KİNOLOQ İT ÜÇÜN RƏHBƏR OLMALIDIR"

Müsahibimiz bildirir ki, kinologiya elminin təməlləri hərbi məktəblərdə qoyulub. Bu elm Pavlov nəzəriyyəsinə və psixologiyaya əsaslanır: "Kinoloqun bədən dili ideal olmalıdır. Çünki itlər səs, üz mimikası və bədən dili ilə hərəkət edir. Dediyimiz sözlərin heç birini anlamırlar. Kinoloq it üçün rəhbər olmalıdır ki, heyvan özünü ona bənzətsin. Təlimçi itlə arasına məsafə qoymalıdır ki, it onu sahibi yox, müəllimi kimi qəbul etsin".

### "İTİ BAŞA SALMAQ OLUR, SAHİBİNİ YOX"

N.Əhmədlinin sözlərinə görə, bu sahədə itlərlə bağlı çətinlik yoxdur. Əksinə, insanlarla işləmək daha yorucudur: "İti başa sala bilirik, amma itin sahibinə nəyisə izah edə bilmirik. Sahibi hər şeyə etiraz edirsə, iti təlimə qəbul etmirik. Deyirlər ki, "iti təlimə verim, iki aydan sonra gəlim əmr verim, yerinə yetirsin".

Elə bilirlər ki, itə proqram yükləyəcəyik və hər şeyi edəcək. İtə vaxt ayırmasanız, qayğı göstərməsəniz, tapşırıqları həftədə bir dəfə təkrarlatmasanız təlimin nəticəsi olmayacaq. Təlimi üç ay itə, bir ay da sahibinə keçirəm. Birləşdirdikdə ortaya nəticə çıxır. Təlim keçmiş itlə, təlim haqqında məlumatı olmayan sahib mümkün deyil. Çünki sahibinin bədən dili yanlış olacaq və it səhvlər edəcək".

### "İTLƏRİN ÖZ YAŞAYIŞ AREALI OLMALIDIR"

Çox zaman insanlar itləri evdə saxlayır. Lakin bu, o qədər də doğru yanaşma deyil: "Ən yaxşı təlimçi itin sahibidir. Hər iti saxlamaq üçün eyni saatlarda yeməyini vermək, gəzintiyə çıxarmaq və oyun həddini aşmamaq lazımdır. Çox insan iti bina evində saxlayır. Lakin itlər sürü psixologiyası ilə yaşayır, sizi rəhbər olaraq görməlidirlər. Özünü sizinlə eyni səviyyədə görsə, özünü rəhbər düşünəcək. İtin özünə aid ərazisi olmalı və orada yaşamalıdır. İt düzgün yetişdirilməzsə, onda aqressiya olacaq. Balaca itlər düzgün yetişdirilmir deyə, daha səs-küylü olurlar. Böyük it isə düzgün yetişdirilmədikdə insanları tuta bilər. İtaət istəyirsinizsə, "olmaz" komandasını aşılamaq kifayətdir. İti döymək, şiddət göstərmək olmaz, amma çox şıltaq itlərə cəza kimi yüngül toxunuşlarla vurmaq olar".

### TABE OLMAĞI SEVMƏYƏN İT CİNSLƏRİ

Kinoloq deyir ki, itlər kiminlə çox vaxt keçirirsə, özünü ona oxşadır: "İt sahibinə oxşayar" deyimi düzdür. Sahibi itin xasiyyətini istədiyi kimi formalaşdıra bilər. Ona baxdıqda onun sahibinin də xasiyyətini təxmin etmək olur. Bu səbəbdən itlər təlimə tez verilməlidirlər ki, xarakterlərini təlimçi formalaşdırsın. Təlimə 3-4 ayından yaş yarıma kimi başlamaq yaxşıdır. 2-3 yaşındakı itin xasiyyətini dəyişmək çətindir".

Müsahibimiz bildirir ki, müxtəlif xasiyyətə sahib it cinsləri var:

> *İtə ev yeməyi, kolbasa, ət, sümük vermək olmaz. Bişmiş sümük lap təhlükəlidir. Çünki sümük süngər tərkiblidir, bişdikdə məsamələri genişlənir və dişlədikdə kəsici alətə çevrilir.*



"Müəyyən cinslər var ki, tabe olmağı sevmirlər, daha azad ruhludurlar. Haskilər, malamutlar, laykalar, akitalar... Bəzi təlimçilər o itləri qəbul etsə də, biz təlim keçmirik. Çünki sahibi ilə mütəxəssisin bədən dili fərqlidir. İnsan gərək xarakterinə və yaşadığı yerə uyğun it cinsi seçsin. Bir xanım Cane corso cinsi olan itlə baş edə bilməz. Heç vaxt it saxlamamısızsa, basqın xarakterli iti gətirsəniz, sözünüzə baxmayacaq. İtin xasiyyəti sahibini üstələyərsə, heç nə etmək mümkün deyil. Ən basqın xarakterli it rotveylerdir. İnadçı cins itlərin öyrənməsi vaxt aparır. Biql, Jack Russell terrierlərin heç nə vecinə deyil, öz dünyaları var. Taksaların da özünəməxsus xarakteri var. Bu cür itlərə təlim keçmirəm. Golden retrieverlər çox ağıllı itlərdir. Onlar məni heyrətləndirirlər, çünki əmri tez anlayırlar, bədən dilinə yatqındırlar, onlarla işləmək insanı yormur. Retriever və malinoalar əmri tam dəqiqliklə yerinə yetirirlər".

### "İTAƏTSİZ MÜHAFİZƏ CANLI BOMBADIR"

Təlimçinin sözlərinə görə, bir itin öyrənmək müddəti iki ildir. Amma sahibi ilə gəlməlidir: "İtin həm mühafizəkar, həm də itaətkar olması üçün zamana ehtiyac var. İlk üç ay itaət öyrədilir. Sonra sahibi istəyərsə, üç ay mühafizəni keçirik. İtaətsiz mühafizə canlı bombadır. İtaəti öyrətməyib tutmaq komandalarını öyrətsək, sakitləşdirə bilməyəcəyik. Amma mühafizə daha çətindir. Çünki oradakı incə xətti qaçırmaq olmaz. Fiqurantın adi səhvi təlimi məhv edə bilər. İtin hər balaca addımında sığallayırıq, afərin deyərək özgüvən aşılayırıq. İt hürdükdə, cummaq istədikdə işarə veririk ki, fiqurant qaçsın. Amma itin üzərinə gəlsə, fiqurant itdən böyük olduğu üçün özgüvəni qırılar və bacarmadığını anlasa, qorxaq olar. Çünki heyvanlar ölçüyə görə hərəkət edir. Dişi itlər təlimə daha tez cavab verir, analıq instinktinə görə mühafizəni daha yaxşı bacarırlar. Dünyada dişi itə, ölkəmizdə isə erkək itə üstünlük verirlər".

### İTİ KİNOLOQLA ALIN Kİ, ALDANMAYIN

Heyvan satışlarından danışarkən müsahibimiz bildirir ki, bəzən satıcılar insanları aldadırlar: "İtin cinsi saf qandırsa, qiyməti yüksək olur. Məsələn, toy pudel cinsi 2000-3000 manatdır. Bəzən aldadıb qarışıq cins satırlar. Pudellər o qiymətə dəyər. Çünki onlar çox ağıllıdırlar, "olmaz" komandasını daha tez qavrayırlar, yüksək təlim qabiliyyətinə sahibdirlər. Sahibini müşahidə etmək qabiliyyətləri çox yüksəkdir. Tükü tökülmür və qoxuları olmur. İt almaq istədikdə kinoloqla məsləhətləşmək lazımdır. 15 dəqiqə söhbət etdikdən sonra bilmək olur ki, bu insana hansı cins uyğundur. Hər insana uyğun it cinsi var".

Bəzən sosial şəbəkələrdə görürük ki, övladı olan valideynlər əvvəldən sahibləndikləri heyvanları başqasına verirlər ki, uşağıma mikrob keçər. Amma müsahibimiz deyir ki, itlərlə uşaqların bərabər böyüməsinin müsbət tərəfləri daha çoxdur: "Əgər itin baxımı yerindədirsə, dərmanları vaxtında verilirsə, heç bir ziyanı yoxdur. İt saxlayan şəxs də hər üç ayda bir dəfə qurd dərmanı qəbul etməlidir. Qurd və infeksiya keçməməsi üçün keyfiyyətli vaksin və dərman əsas şərtdir".

### İTLƏRİMİZƏ HANSI QİDALARI VERMƏLİYİK?

Kinoloq it saxlayarkən etdiyimiz ən böyük yanlışlardan da danışır: "İtə ev yeməyi, kolbasa, ət, sümük vermək olmaz. Bişmiş sümük lap təhlükəlidir. Çünki sümük süngər tərkiblidir, bişdikdə məsamələri genişlənir və dişlədikdə kəsici alətə çevrilir. İt sümüyü udur və iç orqanları zədələnə, hətta birdəfəlik ölə bilər. Əti ya qurudulmuş, ya da dondurub donunu açaraq vermək olar. Çünki donduqda bakteriyalar ölür. Çiy ət itin bağırsağında qurd yarada bilər. Ona görə də itlərə yalnız mağazalarda satılan quru yem vermək lazımdır. Bazarda kiloqramı 40-200 manata qədər olan yemlər mövcuddur. Qiyməti 90-150 manat arası olan yemlər daha keyfiyyətlidirlər. Tərkibi quzu və ya mal əti olmalıdır. Toyuq tərkibli yem itlərdə dəri xəstəlikləri yaradır. İtlərə sulu yemək də vermək olmaz. Süd ziyandır, çünki bağırsaqda sürüşkənlik yaradır".




**Fotolar:** Rüfət Mikayılov / Global Media Group

## KÜÇƏ İTLƏRİNİ TOPLU HALDA YEMLƏMƏK OLMAZ

N.Əhmədli ilə küçə itlərinin insanlara hücum etməsi mövzusuna da toxunduq: "İt insana o halda hücum edir ki, ona aqressiya göstərilir. İtlər sürü ilə yaşadığı üçün əksər hallarda toplu gəzirlər. Parklarda cəm halda yatdıqlarını görə bilərsiniz. Bir insan oradan keçəndə hücum edirlər, çünki özlərinə sahə müəyyən edib balalarını qoruyurlar, oraya yaxınlaşdıqda reaksiya verirlər. Hücumun səbəbi balasını, yaxud erkəyin dişisini qorumaq instinktidir. Bir də küçə itlərini toplu halda yemləmək olmaz. Bu, onların təbiətinə ziddir. Onlar sürüdə özlərinə rəhbər seçirlər. O yem tapır və digərlərini istiqamətləndirir. Amma yemlədikdə, rəhbər olaraq insanı görməyə başlayırlar. Yemək hazır gəldiyi üçün tək işləri olduqları sahəni mühafizə etmək deyil, insanlara da hücum edirlər. Küçə itlərini qısırlaşdırmaq lazımdır ki, çoxalmasınlar. Qısırlaşdırma dişilərdə bətn, erkəklərdə isə prostat xərçənginin qarşısını alır".



### BÖYÜK İTLƏRDƏ XƏSTƏLİK DAHA ÇOX OLUR

İtlərin xəstəlikləri də elə məhz nəzarətsiz cütləşmədən yaranır: "İtlərin ömrü minimum 7-8, maksimum 14 ildir. Balaca itlər daha uzunömürlüdürlər. Böyük itlər qocalanda omba, sümük problemləri yaranır. Bəzi it cinsləri genetik xəstəliklərə meyillidir. Böyük itlərin hamısı displaziyaya yoluxa bilir. Bu zaman it ömürlük iflic olur. Səbəb ən çox qohum evliliyidir. Bu səbəbdən heyvanların cütləşməsini nəzarətə almaq lazımdır. Satışı ilə məşğul olanlar bacı və qardaşı cütləşdirib satırlar. O zaman xəstəliklər meydana çıxır".

### "HƏR İT ÖZ KİNOLOQU İLƏ DAHA YAXŞI FƏALİYYƏT GÖSTƏRİR"

"Heyvandır" deyib keçdiyimiz canlılar insanların duyğularını anlayır, kefimiz olmadıqda hiss edir, xəstə olduqda stress keçirirlər. Sahibi oyun etsə də, onun kefini açmaq üçün çalışır: "Kinoloq kimi hərbidə işlədikdə bir iti mənə təhkim etdilər. O, çox yaramaz idi. Hətta Rusiyadan gəlmiş təlimçi ilə də yola getməmişdi. Mənimlə yavaş-yavaş dostlaşdı. Onunla vətənimizi və xalqımızı qoruyurduq. Amma mən hərbidən çıxdıqda o it də fəaliyyətini dayandırdı. Daha axtarış etmirdi. Həmin vaxt o iti mənə gətirdilər. İt məni gördükdə yavaş-yavaş tanıdı yenidən həyata qayıtdı. 10 yaşına qədər yaşadı. İtlər təhkim olduqları kinoloqa alışırlar deyə, çalışırlar onları işdən çıxarmasınlar. Kinoloq tərxis olduqda it onu ölmüş kimi qəbul edir və stressə düşür. Hər it öz kinoloqu ilə daha yaxşı fəaliyyət göstərir, başqası gəldikdə əvvəlki kimi ola bilmir".




# SOCAR-da yeni müşavir təyinatı

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəfə yeni müşavir təyin edilib. "Report"a SOCAR-dan bildirilib ki, bu vəzifəyə "Azneft" İstehsalat Birliyinin keçmiş baş direktoru Şahmar Hüseynov təyin edilib.

Xatırladaq ki, bir necə gün əvvəl Əli Qurban oğlu Qurbanov "Azneft" İB-nin yeni baş direktoru təyin edilib. O, bundan əvvəl "Umid-Babək Əməliyyat Şirkəti"nin Azərbaycandakı filialının direktoru vəzifəsində çalışıb.

AZERÇAY
Doğma Çay
#QürurDuyuruq

# Doğma çay "Azerçay" yeni reklam filmini təqdim etdi

İstehlakçılara təqdim olunduğu ilk gündən milli-mənəvi dəyərlərimizin, tariximizin və mədəniyyətimizin təbliğini prioritetlərindən hesab edən doğma çay "Azerçay" Azərbaycanın məşhur simaları ilə reklam çarxı hazırlayıb.

Xalq artisti Alim Qasımov, məşhur aparıcılar Azər Qərib və Nailə İslamzadə, "Qarabağ" futbol klubunun sevilən oyunçusu Toral Bayramovun yer aldığı çarxın süjeti iki xətdən ibarətdir.

#qürurduyuruq söyləyərək ərsəyə gətirilmiş reklamda məşhur simalarla bərabər, "Azerçay"ın hazırlanması və istehlakçılara təqdim olunmasında mühüm rol oynayan fermer, istehsalatda çalışan əməkdaş, satış təmsilçisi və mağaza satıcısı da yer alıb.

Qeyd edək ki, Azərbaycanın çay adət-ənənələrini yaşadan, doğma çay markası olan "Azerçay", bir çox sosial layihələrin təşkilatçısı və dəstəkçisidir.

Dünyanın 40 ölkəsinə satışı həyata keçirilən adıçəkilən brend xarici istehlakçıların da sevgisini qazanaraq, "Made in Azerbaijan" yazısını üzərində şərəflə daşıyır.



# İPOTEKA ŞƏRTLƏRİNİN yüngülləşdirilməsi təklif edilir

"Ölkədə nə qədər sayt, sayt rəhbəri var. Əməkhaqqısı yüksək olan jurnalistlər var. İpoteka götürmək istəyəndə isə onlara elə münasibət göstərirlər ki, sanki bu işləri müvəqqətidir".

"Azərbaycanda ipoteka kreditlərinin verilməsi şərtləri yüngülləşməlidir". "Report"un məlumatına görə, bu fikirləri deputat Siyavuş Novruzov Milli Məclisin plenar iclasında "İpoteka haqqında" qanuna təklif edilən dəyişikliklərin müzakirəsi zamanı bildirib.

"Dövlət, dövlət başçısı istəyir ki, hər bir vətəndaşı yaxşı yaşasın. Əfsuslar olsun ki, ipoteka kreditlərindən daha çox dövlət qulluğunda çalışanlar geniş şəkildə istifadə edə bilirlər. Digər şəxslərin ipoteka kreditlərindən bəhrələnməsi çətindir.

Götürək bənna, zərgər, bərbər, çilingər və digər sahələr üzrə çalışanları - heç biri ipoteka götürə bilmir. Halbuki bunlar hamısı vergi ödəyicisidir", - S.Novruzov qeyd edib.

Deputatın fikrincə, cəmi 3 nəfər (bu il - red) jurnalist ipoteka krediti ala bilib: "Ölkədə nə qədər sayt, sayt rəhbəri var. Əməkhaqqısı yüksək olan jurnalistlər var. İpoteka götürmək istəyəndə isə onlara elə münasibət göstərirlər ki, sanki bu işləri müvəqqətidir. Jurnalist var 20 ildir eyni saytda işləyir, lakin bu günə qədər ipoteka krediti ala bilmir".

S.Novruzov hesab edir ki, bundan əlavə kənd yerlərində yaşayanlara verilən ipoteka ilə şəhərdə yaşayanlara verilən ipoteka krediti arasında fərq olmalıdır: "Gənc ailə, gənc müəllim kənddən ev alıb yaşaya bilməlidir".



## "HEÇ BİR MÜƏLLİM TƏQAÜDƏ GETMƏK İSTƏMİR"

S.Novruzov pensiya yaşı məsələsindən də danışıb. Bildirib ki, Azərbaycanda 65 yaşında olan heç bir müəllim təqaüdə getmək istəmir. O cümlədən, səhiyyə sahəsində çalışanlar da bununla razılaşmır. Deputatın sözlərinə görə, onlar xahiş edirlər ki, yaş həddi artırılsın. "Neft şirkətində isə 65 yaşında təqaüdə göndərilən şəxslər ağlaya-ağlaya gedirlər. Nazirlər Kabinetinin müəyyənləşdirdiyi 300-dən artıq sahə var ki, o sahələrdə çalışanlar erkən pensiyaya çıxa bilərlər. AMEA-da, dövlət qulluğunda çalışanlar 65 yaşda təqaüdə getmək istəmirlər. 65 yaşında kişi gedib bina tikə, daş qaldıra bilməz. Amma 65 yaşında kişi auditoriyaya girib mühazirə oxuya bilər", - S.Novruzov qeyd edib.

## TƏQAÜD YAŞININ 65-DƏN 60-A ENDİRİLMƏSİ İSTƏNİLİR

Millət vəkili Sabir Rüstəmxanlı isə ailə institutu ilə bağlı problemlərə toxunub. O qeyd edib ki, sosial problemlər ucbatından gənc qızlar ana olmaq istəmirlər. S.Rüstəmxanlı təqaüd yaşının azaldılmasına nəzər salınmasını da təklif edib: "Təqaüd yaşının 65-dən 60-a endirilməsi istənilir. Ümumiyyətlə, anaların, qadınların pensiya çıxmaq yaşını azaltmaq lazımdır. Dövlət idarələri bu barədə düşünməlidirlər. Hər halda 62-65 yaş Azərbaycanda təqaüdə çıxmaq üçün çox yüksəkdir. Biz deyirik ki, uzunömürlülər vətəniyik, amma bu da artıq nağıl kimi keçmişdə qaldı".

### "BU MƏHDUDİYYƏT ARADAN QALDIRILSIN"

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təklif edib ki, şəhid ailələrinin üzvləri və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün dövlət hesabına təhsilalma ilə bağlı tətbiq edilən yaş məhdudiyyəti aradan qaldırılsın.

"Çox yaxşı haldır ki, müharibə veteranı olmuş şəxslərə bununla bağlı heç bir yaş məhdudiyyəti yoxdur, istər 30 yaşında universitetə girsinlər, dövlət onların təminatını verəcək", - deyə deputat bildirib. Onun sözlərinə görə, şəhid ailəsi üzvləri və valideyn himayəsindən məhrum olmuş uşaqların təhsilinə dövlət dəstəyinin son yaş həddi 23-dür: "Təklif edirəm ki, bu məhdudiyyət aradan qaldırılsın. Bu kateqoriyadan olan şəxslər istənilən yaşda təhsil ala bilməlidirlər".


Musa Quliyev

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# MƏKTƏBLƏ REAL HƏYAT ARASINDAKI "UÇURUM"

Hazırda orta məktəblərdəki təlim köhnəlmiş materiallardan istifadə etməklə aparılır. Məzunların əksəriyyəti bir neçə ildən sonra demək olar ki, bütün məktəb kurikulumunu unudurlar. Bu baxımdan, müasir reallıqlara cavab vermək üçün məktəblər dəyişməlidir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Məktəblə real həyat arasındakı "uçurum" uzun müddətdir ki, aydın görünür və böyüməkdə davam edir. Məzunların əksəriyyəti bir neçə ildən sonra demək olar ki, bütün məktəb kurikulumunu unudurlar, təlim köhnəlmiş materiallardan istifadə etməklə aparılır. Hesab edilir ki, dünya sürətlə dəyişilir və 10-15 ildən sonra indiki şagirdlər üçün hansı biliklərin faydalı olacağını dəqiq müəyyən etmək çətindir. Ümumiyyətlə, gələcək haqqında dəqiq proqnoz vermək mümkün deyil və müasir reallıqlara cavab vermək üçün məktəblər dəyişməlidir. Bu baxımdan hamıya maraqlı gəlir: yaxın illərdə orta təhsilin inkişafını hansı tendensiyalar müəyyən edəcək? Dünya ölkələri çoxdan bu istiqamətdə müxtəlif tətbiqlər həyata keçirirlər. Bizim ölkəyə gəlincə, elm və təhsil naziri Emin Əmrullayev çıxış yolunu məzmun baxımından, səriştəyə əsaslanan, yeni modelli təhsilə keçiddə görür: "Yaşlılar 30-40 il əvvəl öyrəndiklərini uşaqlara öyrədirlər, bunu ciddi problem olaraq görürük", - deyə nazir Azərbaycan müəllimlərinin XVI qurultayında çıxışı zamanı bildirib: "Yaşlı müəllimlər düşünürlər ki, növbəti 30-40 ildə bu biliklər uşaqların işinə yarayacaq. Amma həqiqət odur ki, bu, belə deyil. Biz bunu çox ciddi problem olaraq görürük. Qurum olaraq buna görə biz məsuliyyət daşısaq da, əslində bütün ictimaiyyəti maraqlandıran məsələdir. Söhbət tədris planını dəyişməkdən getmir, məzmun baxımından, səriştəyə əsaslanan, yeni modelli təhsilə keçiddən gedir".

Şübhəsiz, nazirin nəzərdə tutduğu dəyişiklik təlim-tədris proqramlarının məzmununda yenilik, keyfiyyətli, dövrün tələblərinə uyğun təlim proqramlarının hazırlanmasını tələb edir. Keyfiyyətli dəyişiklik isə müəllimlərin tədris prosesində yeri və roluna yeni baxış formalaşdırmadan mümkün deyil. Təbii ki, keyfiyyətli tədris proqramlarının hazırlanması vaxt tələb edir və çox vaxt peşəkar biliklər onun inkişafı üçün proqramlar ortaya çıxmazdan əvvəl köhnəlir. Bəs yeni modelli təhsilə keçid, məzmun dəyişikliyi, müasir dünyanın əmək bazarı ilə uyğunlaşmaq üçün atılmalı addımlar sırasında nələr qaçılmazdır? Kadr dəyişikliyimi? Dərsliklərin məzmunumu? Dövrlə ayaqlaşmayan fənlərin tədris proqramından çıxarılmasımı?

## MƏZMUN YOX, ÖYRƏNMƏ STRATEGİYASI DƏYİŞİB

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) sədri Rüfət Əsədzadə məsələyə beynəlxalq təcrübədən yanaşır: "Beynəlxalq sistemdə vahid dərslik tələbi yoxdur. Müəllimin istədiyi kitabı seçə bilər. Müəllimin sərbəstliyi olmalıdır. Elə mövzular var ki, onu müəllimin özü, elə mövzular da var ki, kitab daha yaxşı izah edə bilir. Bizə tövsiyə olunan kitablar və sillabus verilir, müəllim istifadəsinə özü qərar verir". AGMA sədrinin sözlərinə görə, tədrisdə məzmun o qədər çox dəyişməyib, amma uşaqların öyrənmə strategiyası dəyişib: "Ona görə də bizim öyrətmə tərzimiz dəyişib. Əgər əvvəllər kimya dərsində uşaqlar hansısa reaksiyaları əzbərləyirdilərsə, indi buna ehtiyac yoxdur. Hər şey internetdə var və uşaq istədiyi vaxt o məlumatı rahatlıqla tapa bilər. Uşağın onun istifadəsi və faydası haq-qında məlu-matlı olması yaxşıdır". R.Əsədzadə hesab edir ki, tədrisin keyfiyyətini artırmaq üçün hər fənnin özünün müəllim assosiasiyası olmalıdır: "Bizim təşkilat bununla bağlı təklif irəli sürüb. Yəni məzmunun hazırlanmasında və müzakirəsində müəllimlər iştirak etsinlər. Nazirin də demək istədiyi budur. Adətən kitablar Bakıdakı ən yaxşı müəllimlər və ya ekspertlər tərəfindən yazılır. Burada rayondakı uşağın psixologiyasını və yanaşması nəzərə alınmır. Ona görə də bəzən müəllimlər proqramı tədris etməkdə çətinlik çəkirlər. Amma müəllim assosiasiyaları formalaşsa və təhsilverən həqiqə-tən də orada akademik müzaki-rələr aparsa, belə olmaz.


Rüfət Əsədzadə


Rüxsarə Əlizadə


Nadir İsrafilov

Foto: Sabir Məmmədov/Global Media Group

## SOSİAL, MƏNTİQİ, İNTELLEKTUAL VƏ EMOSİONAL İNKİŞAF ÜÇÜN

AGMA sədri təklif edir ki, məsələn, ədəbiyyat fənninin məzmununda natiqlik və ünsiyyət ön plana çıxarılmalıdır: "Uşaqlar 6 il ədəbiyyat keçirlər, amma sonra özlərini təqdim edə bilmirlər. Ədəbiyyat təkcə mütaliə deyil, bu fənnin keçilməsi ünsiyyətimizdə də özünü göstərməlidir. Bu gün müəllimlər ədəbiyyatı qoyur kənara, bütün imtahan prosesinə daxil olduğu üçün yalnız Azərbaycan dilinə fokuslanırlar. Bu da natiqlik və ünsiyyət prosesinin inkişaf etməməsinə gətirib çıxarır". R.Əsədzadənin fikrincə, bu gün uşaqlara statistika və bizneslə bağlı keçilən dərslər onların gözünü açır. Eyni zamanda, məktəblərdə tədris olunan ingilis dilinin də məzmunu dəyişməlidir: "İngilis dili müəllimlərimizin əksəriyyəti dilin qrammatikasını ingilisdən yaxşı bilir, amma ingilis dilində danışa bilmirlər. Danışa bilməyən müəllim uşağa ingilis dili öyrədə bilməz". R.Əsədzadə məzmun dəyişikliyində uşaqların sosial fəaliyyətlərinin düzgün təşkilinin vacibliyini də qeyd edir: "Dərnəklər kiminsə dərs saatı az olduğu üçün açılmamalıdır. Ora peşəkar mütəxəssislər cəlb edilməlidir".



### YAŞ QRUPLARI ÜZRƏ TƏLİMLƏR KEÇİRİLSİN

İnformatika müəllimi Rüxsarə Əlizadə hesab edir ki, yeni məzmunun yaradılmasında yaşlı müəllimlər ustad dərsləri və təlimlər keçməklə iştirak edə bilərlər: "Yaşlı müəllimlərin yeni məzmuna yiyələnmələri üçün onlara ustad dərsləri və treninqlər keçirilməlidir. Yeniliyə açıq müəllimlərimiz çoxdur. Onlar özləri də həmişə öyrənmək istəyirlər. Müəllimlər yaş qrupuna görə - 40-50, 50-60, 60-65 arası kateqoriyalar üzrə təlimlərə cəlb olunsalar, etiraz eləməzlər və bu, işin xeyrinə olar".

Təhsil eksperti Nadir İsrafilovun fikrincə, nazir yeni modelli təhsilə keçidlə əlaqədar yaşlıların yeniliklərə hazır olmaları üçün gələcəkdə bir qədər də məsuliyyətli olmaları mesajını verib: "Yeni yaşlı müəllimlər öz üzərlərində daha ciddi işləməlidirlər".

# DÜNYANIN YENİ YEDDİ möcüzəsindən biri



Petra İordaniyanın mühüm turizm mərkəzidir. Sivilizasiyanın qədim şəhəri 4000 il əvvəl yaranıb. Gün ərzində qırmızıdan narıncıya və çəhrayıya çevrilən qayaların rənginə görə fərqlənir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İordaniyanın yeganə liman şəhəri Aqabaya səfər edən turistlər çox vaxt “Azad İqtisadi zona olduğu üçün viza tələb olunmur” fikri ilə üzləşirlər. Ölkəyə səfərdən öncə İordaniya Haşimilər Krallığının ölkəmizdəki səfirliyindən viza ilə bağlı sualımıza konkret cavab verildi: “Aqaba İordaniya ərazisidir. Viza almayıb gedən Azərbaycan vətəndaşlarına sərhəd keçid məntəqəsində yaranan problemlərə görə səfirlik heç bir məsuliyyət daşımır. Aqabaya Azərbaycandan gedən turistlərə ölkə sərhədində elektron viza verilir. Elektron vizanı səfər öncəsi onlayn şəkildə də əldə etmək mümkündür”.

İordaniya ərazisinə daxil olmaq üçün alternativ variant eloktron viza (115 AZN) əvəzinə “Jordan pass”ı (174 AZN) onlayn əldə etməkdir. Bu sənəd turist vizasını əvəz etməklə yanaşı, ölkənin Petra, Vadi-Rum kəndi, Ayla adlı orta əsr şəhərinə və s. məşhur attraksionlar daxil olmaqla, ümumilikdə 40 turistik məkanına pulsuz giriş imkanı verir. Bloqer dostların məsləhəti ilə “Jordan pass” əldə edib səfərə yollandıq...

Aqabanın kiçik hava limanında sərhəd keçid məntəqəsindən keçməyə çox vaxt tələb olunmur. Sərhədçilər nəzakətlə “Jordan pass”ı təsdiqləyib ölkəyə girişimizə icazə verdilər.

Hava limanından şəhərə doğru avtobuslar gözə dəymir. Taksi sürücüləri pərakəndə halda “taksi lazımdır?” deyə turistləri əhatələyib qiymətləşməyə başlayırlar.

Hava limanından şəhərə doğru uzanan səliqəli, palma ağacları və güllərlə bəzənən yollar tədricən boş səhralar və baxımsız küçələrlə əvəzlənir.

Hotelimizin şəhərin mərkəzində yerləşməsi ərazidə ticarətlə məşğul olan yerli sakinlərin həyat tərzi ilə yaxından tanışlığa imkan yaradır.

Səfərimiz Ramazan günlərinə təsadüf etdiyindən şəhərdə əksər dükanlar, kafe və restoranlar axşamüstü saat 17.00-dan sonra açılır.





### İORDANİYANIN QIRMIZI DƏNİZDƏKİ YEGANƏ LİMAN ŞƏHƏRİ

İordaniya hökuməti daha yaxşı iqtisadi inkişaf üçün bir sıra vergi güzəştləri və digər imtiyazları olan bir neçə iqtisadi zona yaradıb. Turistlər arasında ən məşhur və populyar olanı Aqaba şəhəridir. Bu, İordaniyanın Qırmızı dənizdəki yeganə liman şəhəri, həm də ölkənin cənubunun inkişaf mərkəzidir.

Şəhərin florası xurma palmaları ilə zəngindir. Aqaba körfəzi zəngin sualtı qaynaqları ilə ölkənin məşhur cazibə mərkəzidir. İordaniyanın önəmli gəlir mənbəyi olan fosfat Aqaba limanından ixrac edilir.

## YERLİ ƏHALİ ÜÇÜN MÜNASİB, TURİSTLƏR ÜÇÜN BAHA

Aqabanın əsas cazibəsi Qırmızı dəniz və onun möhtəşəm çimərlikləridir. Sahil zolağında hər zövqə və büdcəyə uyğun hotellər sıralanıb. Aqaba istirahət, ekstremal idmana və əyləncələrə üstünlük verən aktiv turistlər üçün idealdır. Qumlu, kiçik çınqıllı və mərcan rifləri olan çimərliklərə malik Qırmızı dənizi, Aqaba körfəzini, müalicəvi əhəmiyyəti ilə dünyada məşhur Ölü dənizin çimərliklərini, dünyanın yeni yeddi möcüzəsindən biri - Petra şəhərini, İordaniyanın ən böyük qum səhrası olan Rum Vadisini (Vadi Rum) görmək üçün buraya dünyanın hər yerindən turistlər gəlir. Aqabanın daha bir özəlliyi dalğıc turizmidir.

“Qonşuluqda İsrail-Fələstin müharibəsinin davam etməsi ölkəmizə gələn turistlərin sayına da təsir edib. Bizim ailəmiz var, elə gün olur ki, bir qəpik də qazanmırıq”, - deyə sürücümüz bildirir.

İordaniyada qiymətlər yerli əhali üçün münasib sayılsa da, turist xidmətləri çox bahalıdır. Məsələn, yerli turizm agentlikləri özəl Petra turu üçün 190, Ölü dəniz turuna 250, Vadi Rum turuna 180 ABŞ dolları istədilər.

Aqabanın tam mərkəzində yerləşən Mərkəzi Bazar turistlər arasında çox populyardır. Buradakı piştaxtalar təzə meyvə, tərəvəz, ədviyyat və şirniyyatla dolub-daşır. Qiymətlər isə turistlərə növbə çatanda daha da bahalaşır...











## QAYALAR ARASINDA KİÇİK TURİST MAŞINLARI

Petra İordaniyanın mühüm turizm mərkəzidir. Sivilizasiyanın qədim şəhəri 4000 il əvvəl yaranıb. Gün ərzində qırmızıdan narıncıya və çəhrayıya çevrilən qayaların rənginə görə tanınır.

Petra qayalarda oyulmuş sığınacaqları, məbədləri, qaya məzarları, su kanalları, teatrları, sütunlu küçələri və ibtidai bəndləri olan bir çox təəccüblü quruluşu ilə insanları heyrətləndirir. Petra Aralıq dənizini Qırmızı dənizlə birləşdirən qədim ticarət yolu kimi də məşhur olub.

Musa vadisinin kənarında yaradılmış müasir qonaq qəbulu zalında bilet kassalarından keçəndən sonra qədim şəhərin ilk xarabalıqları gözə dəyir. Dağların arasından keçməklə ziyarətçiləri 1200 metr uzunluğunda əsas giriş qarşılayır.

Bədəvi ərəblər Petranın girişində turistləri atla qayalara qədər daşıyırlar. Ərəblərin bir qismi çörək pulunu bundan qazanır. Yerli insanlar Petraya gələnlər üçün bələdçi kimi də çıxış edirlər. Qayalar arasında kiçik turist maşınları da işləyir.

Qayaların arasından sona qədər yürüyən ziyarətçiləri Petranın ən möhtəşəm fasadı və şah əsəri El Hazne sarayı qarşılayır. Təxminən 40 metr hündürlüyündə olan El Hazne sütun başlıqları, frizləri, fiqurları və mürəkkəb formalı bəzəkləri ilə diqqət çəkir. Yerli əfsanəyə görə, sarayın içərisində fironun xəzinəsini gizlədən dəfn qabı da var.

Qədim şəhərdə yerli bəzək əşyaları və yerli insanların hazırladığı zinət əşyaları da satılır.

Təbii film platosu olan Petrada bir çox blokbaster filmlər çəkilib: “İndiana Cons: Son Macəra”, “Xin A Li Ba Ba”, “Səhrada Ehtiras”, “Allahın oğlu” serialı, “Mumiya geri döndü”, “Ruhani döyüşçülər” və s. filmlərdə Petranın möhtəşəm mənzərələri yer alıb.

YUNESKO-nun “Dünya Mədəni İrs” siyahısına daxil edilən qədim Petra həm də “Dünyanın yeni yeddi möcüzəsindən biri” seçilib.

# İNNOVASİYALAR SAHƏSİNDƏ GERİDƏYİK

"Qanunvericilik, insan kapitalı, sərmayə verən fondlar paralel inkişaf etdikdə, innovasiya ekosistemi formalaşır. Ancaq bundan sonra biz ölkədə irəliləyişin şahidi olacağıq".

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

2023-cü il üçün innovasiyalar üzrə ölkələrin reytinqində Azərbaycan dünyada 132 ölkə arasında 89-cu yerdə qərarlaşıb. "The World Intellectual Property Organization" (WIPO) təşkilatının hazırladığı reytinqdə ən innovativ ölkələr İsveçrə, İsveç, ABŞ, Böyük Britaniya və Sinqapur seçilib. MDB ölkələri arasında isə ilk beşliyə Rusiya, Ukrayna, Moldova, Ermənistan və Belarus daxil olub. Qazaxıstandan aşağı pillələrdə isə Özbəkistan, Azərbaycan, Qırğızıstan və Tacikistan dayanıb. Maraqlıdır, ölkədə innovasiyalarla bağlı qanunlar müzakirə edilir, layihələr həyata keçirilir. Bəs nə üçün görülən işlər hesabata təsir etmir? Qlobal İnnovasiya İndeksində niyə geridəyik?

2023-cü ildə innovasiyalar üzrə ölkələrin reytinqində Azərbaycan dünyada 132 ölkə arasında
**89-cu**
yerdə qərarlaşıb



### "BU SAHƏ BİZİM ÜÇÜN HƏLƏ YENİDİR"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının sədri Elvin Abbasov deyir ki, Azərbaycan innovasiyalar sahəsində köklü tarixə sahib deyil. Sıralamada aşağı pillələrdə olmağımızın səbəbi də bu istiqamətdə hələ yeni addımlar atmağımızdır: "Azərbaycanda innovasiya fəaliyyəti haqqında" qanun layihəsi hazırlanıb. Bu istiqamətdə qanunvericilik qısa müddətdə inkişaf etdirilir. Üstəlik, ekosistemin inkişafı tək qanunvericiliyə bağlı deyil. Burada önəmli olan insan kapitalının mövcudluğudur. İnsanlarda intellektual sərmayə, baxış olmalıdır ki, ideya formalaşsın və o istiqamətdə innovasiya edə bilsinlər. Biz dövlət olaraq bu zəmini yaratmalıyıq və bu sahədə də işlər görülür".

### "SƏRMAYƏ FONDLARI FORMALAŞMALIDIR"

Mütəxəssis deyir ki, bu sahənin inkişafı üçün qanunvericilik münbit hal almalı və sərmayə fondları formalaşmalıdır: "Azərbaycanda fərqli istiqamətlərə yatırım edən fondlar olmalı, o sərmayə ilə müxtəlif istiqamətlərdə innovasiya edə biləcək insan kapitalı formalaşmalıdır. Bu kapital da Azərbaycandan referans alıb beynəlxalq aləmə çıxmalıdır. Qanunvericilik, insan kapitalı, sərmayə verən fondlar paralel inkişaf etdikdə, innovasiya ekosistemi formalaşır. Ancaq bundan sonra biz ölkədə irəliləyişin şahidi olacağıq".


Elvin Abbasov


Tariyel Ağazadə

Fotolar: Sabir Məmmədov - Rüfət Mikayılov/Global Media Group

### "BİZ BU İŞƏ 15 İL ƏVVƏLDƏN BAŞLASAYDIQ..."

E.Abbasov vurğulayır ki, başlanğıc mərhələsinə baxdıqda, Azərbaycanın hazırda olduğu pillə pis deyil: "Hazırda startap ekosistemi üçün nə lazımdırsa, dövlət tərəfindən o istiqamətdə işlər görülür. Bir çox dövlət qurumu da bu istiqamətdə peşəkarlar yetişdirmək üçün sərmayə qoyur, kurslar, tədris mərkəzləri açılır. Bu sahədə inkişaf mərhələli şəkildə gedir. Biz bu işə 15 il əvvəldən başlasaydıq, gec qalmışıq deyə bilərdik. Amma indi hazırda olduğumuz pillə pis deyil. Azərbaycan sürətli inkişaf edən ölkədir. Biz də bu sahədə qısa müddət ərzində çox uzun yolları qət edə biləcəyik".

İnnovasiya ekosisteminin aktiv üzvlərindən olan texnobloger Tariyel Ağazadə də təsdiqləyir ki, Azərbaycan bu sahədə yeni olduğu üçün aşağı pillələrdə yer tutmağımız normaldır: "Ölkədə innovasiya, startap sistemi yeni-yeni addımlamağa başlayıb. Hazırda dövlət qurumları da məhz bu sahədə irimiqyaslı işlər görməyə başlayıblar. Bu proses uzun və mərhələli şəkildə inkişaf etməlidir. İnnovasiya sahəsinə edilən yatırımların, yaxud müzakirə edilən layihələrin nəticəsi dərhal olmaya bilər".

### "BU SIRALAMA İLƏ BAĞLI ŞÜBHƏLƏRİM VAR"

Texnobloger bu sıralama ilə razı deyil və şübhə etdiyini vurğulayır: "Sıralama ilə bağlı bəzi şübhələrim var. Bu siyahı hazırlanarkən onlar yerli qurumla işləyirlər. Məhz startaplarla bağlı statistikanı təşkilata yerli qurum təqdim edir. Mən bu statistikanın düzgün aparılmadığı qənaətindəyəm. Çünki Azərbaycanda startap ekosisteminin xəritəsi ilə tanış olduqda orada bəzi nüansların səhv qeyd edildiyinin şahidi olmuşam. Hətta siyahıda bir neçə il öncə uğursuz olan startaplar da var idi. Yeni startaplar, ekosistem qurucuları, şirkətlər qeyd olunmamışdı. Ona görə də bu statistikadan şübhə edirəm".

### "ƏSAS FOKUSUMUZ NEFT OLUB"

Ermənistanın bu sahədə bizi qabaqlamasına gəldikdə isə, mütəxəssis vurğulayır ki, bunun səbəbi qonşu ölkənin bu sistemə bizdən öncə addım atmasıdır: "Bizim ölkə olaraq əsas fokusumuz neft olub. Texnologiya sahəsində addımlar yeni-yeni atılır. Fokusumuz təbii sərvətlər olduğu üçün biz bu sıralamaya önəm vermirdik. Ermənistan innovasiyalar sahəsində bizdən öndədir. Çünki orada heç bir təbii sərvət və ümumiyyətlə, bunun kimi digər maliyyə mənbələri olmadığı üçün məcbur texnologiyaya üz tutublar. Bu səbəbdən də bu sahədə inkişaf ediblər. Bizim də bu sahədə inkişafımıza yeni qanunlar təsir edəcək. Sıralamada öndə olmağımız üçün startapların sayının artması, uğurlu olması, ən əsası, qlobal bazara satış etməsi çox mühümdür".

# YERLİ İSTEHSAL TƏLƏBİ ÖDƏYƏ BİLMİR

Polad və dəmir məftil idxalımız kəskin şəkildə artıb. Mütəxəssislər düşünürlər ki, bunun başlıca səbəbi işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işləridir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycan Gürcüstandan dəmir və polad məftil alışını 100 dəfəyə yaxın artırıb. Ötən il Azərbaycana 15,4 milyon ABŞ dolları dəyərində 15 min 518 ton dəmirdən və ya aşkarlanmamış poladdan məftil idxal edilib. Bu rəqəmin birdən-birə bu qədər artması müəyyən suallar doğurur. Daxili polad və dəmir istehsalı fonunda bu artım hansı səbəblərlə bağlıdır?

**XAMMAL XARİCDƏN GƏTİRİLİR**

İqtisadçı Fuad İbrahimov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, əksər hallarda bu məhsul ölkəmizə hazır şəkildə gəlmir. Onu özümüz istehsal edirik: "Məftil də dəmir və poladdan hazırlanır. Polad məftillər tikintidə istifadə olunur, armatur və beton işlərinin görülməsində ən vacib detallardan biridir. Poladəritmə zavodumuz var. Bu məhsulları istehsal etmək iqtidarındadır. Hazır məhsullar buraxırıq. Xammal formasında məhsulu alırıq və istehsalı ölkəmizdə edirik. Ukraynadan da alırıq. Əsas xammal bazası kimi həmişə Rusiya və Ukrayna daha öndə olub. Bizdə həmin ölkələrdən xammaldan hazırlanmış "balvanka" deyilən materiallar gətirilir və onların əsasında armaturlar, məftillərin hazırlanması həyata keçirilir".

## İDXALDAN ASILIYIQ

F.İbrahimovun sözlərinə görə, hazırda Qarabağ iqtisadi zonasında tikinti prosesləri davam etdiyi üçün yerli müəssisələrimizin istehsal gücü zəifləmiş ola bilər: "Hazır məhsul da almağımız mümkündür. Çünki torpaqlarımız işğaldan azad olunduqdan sonra əsaslı tikinti, yenidənqurma və abadlıq işləri gedir. Böyük tunellər tikilir. Hansı ki, onların tikintisində xeyli miqdarda poladdan və dəmirdən, həmçinin onlardan hazırlanmış ləvazimatlardan istifadə olunur. Çox güman daxili istehsalın bu ehtiyacı qarşılayacaq gücü yoxdur, əhatə edə bilmir. Bu halda təbii ki, idxala ehtiyac yarana bilər. Bizim dəmir və filiz yataqlarımız olsa da, onları hələ də qlobal şəkildə iqtisadi dövriyyəyə cəlb edə bilməmişik".

Müsahibimiz dedi ki, burada qiymət faktorunun da rolu böyükdür: "Bəzən hazır məhsulu qiymətinə görə xaricdən gətirmək daha sərfəlidir. Yəqin ki, indiki vəziyyətdə Gürcüstandan gətirilən məhsulların kəmiyyət artımı da bununla bağlıdır. Amma bu da daimi olan proses deyil. Müəyyən dövrdən sonra qiymətlər yenidən yüksəldikdə başqa tendensiyanı müşahidə edə bilərik".

Ekspertin fikrincə, xammal bazamız olmadığı üçün idxaldan asılıyıq: "İstehsalın artırılması üçün xammal bazamız olmalıdır. Hər bir halda "balvanka" formasında polad həcmlərini idxal etməliyik. Çünki məftil də, armatur da və digər tikinti məhsulları da ondan hazırlanır. Yəni, idxaldan asılıyıq".



Fuad İbrahimov
Rəşad Həsənov

## Çox böyük investisiya tələb edir

İqtisadçı Rəşad Həsənov da düşünür ki, birdən-birə kütləvi şəkildə tələb artdıqda daxili istehsalçılar yeni vəziyyətə uyğunlaşa bilmirlər. Bu sahə ağır sənaye növü hesab olunduğu üçün çox böyük investisiya tələb edir. Ekspertin sözlərinə görə, ola bilər ki, bizim istehsal etdiyimiz növ məftillər alıcıları qane etmir. Bu halda xaricdən fərqli növlərin idxal edilməsi normal haldır: "Bazarda seçim məsələsini də unutmamalıyıq. Bütün zəruri məhsulları daxildə istehsal etsək də bu, o demək deyil ki, artıq xarici ölkələrdən idxal olmayacaq. Bəzi hallarda keyfiyyətinə və qiymətinə görə fərqli alıcılar müxtəlif mənbələrdən əldə edilən məhsullara üstünlük verirlər. İstənilən halda, bu sahədə idxal hər zaman mövcud olacaq. Böyük ehtimalla, artan tələb dövlət sifarişi hesabına formalaşır. Dövlət sifarişi hesabına yaranan tələbi qanunvericiliklə hansısa formada yerli istehsala yönəltmək mümkündür".

## "Bu sahədə potensialımız böyükdür"

Müsahibimiz qeyd etdi ki, xammalı özümüz də əldə edə bilərik. Amma bunun üçün müəyyən addımların atılmasına ehtiyac var: "İstehsalımızı artırmaqla bağlı imkanlar mövcuddur. Hazırda mövcud müəssisələr tam gücü ilə işləyə bilmir. Həm infrastrukturun təkmilləşdirilməsi, həm məhsuldarlığın artırılması lazımdır. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizin filiz və mədən yataqlarının da potensialı böyükdür. Həmin ərazilərdə olan potensialın qısa müddət ərzində istifadəsi üçün infrastruktur formalaşdırılarsa, bu sahəyə investorlar təşviq edilərsə, tələbin əhəmiyyətli hissəsini yerli resurslar hesabına da kompensasiya etmək mümkün olacaq".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 694
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# MİLLİ CAZIN KORİFEYİ



Erməni terrorunun qurbanı olan bəstəkar, Xalq artisti Rafiq Babayev Azərbaycan musiqi mühitinə yeni nəfəs, fərqli baxış gətirib. Milli musiqi zəminində Qərb və Şərq musiqi ənənələrinin sintezini yaradıb, muğam və xalq melodiyalarını caz ritmləri üstündə uğurla təqdim edib.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Caz musiqisinə böyük həvəsi ailədən gələn musiqiçi istedadı ilə birgə hələ uşaqlıqdan həyat yolunu müəyyən etmişdi. Ötən əsrin 60-70-ci illəri məhz görkəmli musiqiçi, bəstəkar, Xalq artisti Rafiq Babayevin caz töhfələri ilə səsini bütün dünyaya yayıb. O, Azərbaycan musiqi mühitinə yeni nəfəs, fərqli baxış gətirib. Milli musiqi zəminində Qərb və Şərq musiqi ənənələrinin sintezini yaradıb, muğam və xalq melodiyalarını caz ritmləri üstündə uğurla təqdim edib. Rafiq Babayevin əsərləri, melodiyaları millətindən, dinindən asılı olmayaraq, bütün insanları birləşdirib.

Təəssüf ki, novator bəstəkar 1994-cü il martın 19-da – 30 il əvvəl ermənilər tərəfindən Bakı metrostansiyasında törədilən terrorun qurbanı oldu. Rafiq Babayev sanki əcəlin amansız oyununu duyubmuş kimi ölümündən bir il əvvəl çəkilən "Təhminə və Zaur" filminin saundtreki olan "Əlvida" kompozisiyasını özü ifa etmişdi. "Görüşdük nə çətin, ayrıldıq, ayrıldıq nə asan", - deyə oxuyan görkəmli bəstəkarın həyatı ömrünün ən gözəl çağında – 57 yaşında qırıldı...

31 mart Rafiq Babayevin doğum günüdür.

Bu gün əzizləri və sənət yoldaşları Rafiq Babayevi böyük hərflərlə yazılan İNSAN və MAESTRO deyə xatırlayır, onu milli cazın korifeyi adandırırlar.

### "BÜTÜN HƏYATINI MUSİQİYƏ HƏSR ETMİŞDİ"

Rafiq Babayevin qızı Fərizə Babayeva atası haqqında danışır: "Atamın həyatı asan olmayıb. Onun atası Fərzi Babayev 1937-ci ildə repressiya olunub. Nənəm Şahbəyim 6 övladını çətinliklə böyüdüb. Sonradan bu uşaqların hamısı peşəkar musiqiçi kimi tanınıb". Fərizə xanım danışır ki, atası bütün günü işlədiyindən onun və bacısının tərbiyəsi ilə anası ilə nənəsi məşğul olub: "Atam evdə də işləyirdi. Ona görə də bizi anamla nənəm tərbiyə edirdi. Atam nənəm üçün çox əziz idi. Ona görə də bizim yanımızda yaşayırdı. Nənəm atamın qoruyucu mələyi idi. O, atamdan bir il sonra dünyasını dəyişdi. Atam özünün caz-instrumental qrupu ilə tez-tez qastrollara çıxırdı. Bəzən səfərləri 2-3 ay çəkirdi. ABŞ-ya qastrolu isə 10 ay davam eləmişdi. Biz balaca idik və onun yolunu gözləyirdik".

F.Babayeva xatırlayır ki, Rafiq Babayev təbiət etibari ilə sakit və səmimi insan olub: "Atam bütün həyatını musiqiyə həsr etmişdi. O, işdən qayıdandan sonra da evdə işləyirdi. Demək olar ki, səhərdən axşama qədər çalışırdı. Evimizdə həmişə sakitlik olardı. Mən heç vaxt evimizdə mübahisə, dava-dalaş görməmişdim. Atamın səsini yüksəkdən eşitməzdim. Mən özüm ailə qurandan sonra anamdan "siz nə vaxtsa mübahisə eləmisiz?" - deyə soruşurdum. Anam da musiqişünasdır. Bəlkə buna görə onlar bir-birinin dilini yaxşı başa düşürdülər. Mən və bacım da nəsil ənənəsini davam etdirdik - musiqiçi olduq".

Rafiq Babayev qastrollardan Bakıya qayıdandan sonra görkəmli müğənni Rəşid Behbudovla tanış olub və Mahnı Teatrında çalışmağa başlayıb: "1967-ci ildə Rəşid Behbudov Mahnı Teatrını yaradanda Rafiq Babayev bu teatrın musiqi rəhbəri vəzifəsinə dəvət edildi. Atamla Rəşid Behbudov teatrlaşdırılmış böyük konsert proqramı hazırlamağa başladılar. Atam bu tamaşanın səhnəyə qoyulması üçün böyük işlər görmüşdü. Eyni zamanda, caz musiqisi sahəsində yaradıcı işini də davam etdirir, festivallarda iştirak edirdi. 1967-ci ildə Tallin şəhərində keçirilən Beynəlxalq Caz Festivalında atamın ansamblı laureat oldu. Atam yaratdığı musiqi kollektivlərində gənc və istedadlı musiqiçilərin üzə çıxması üçün əlindən gələni əsirgəmirdi. O, daim sənət axtarışında idi".

## "ONUN TUTDUĞU YOL AYRI İDİ"





Xalq artisti Mübariz Tağıyev xatırlayır: "Rafiq Babayevlə tanışlığım 70-ci illərə təsadüf edir. O vaxt Qərbi Azərbaycanda işləyirdim. Tbilisidə caz musiqisi ilə bağlı bir tədbir keçirilirdi. Biz həmin tədbirdə görüşdük. Vaqif Mustafazadə də həmin tədbirdə iştirak edirdi. İllər keçdi, elə alındı ki, mənim Bakıya gəlməyimin səbəbkarı da Rafiq Babayev oldu. Teleqram gəldi və mən Mahnı Teatrına dəvət olundum. O vaxt Mahnı Teatrı ayrıca bir akademiya idi. Rafiq teatrın musiqi rəhbəri idi. Bütün aranjemanları birlikdə edirdik. Münasibətimiz get-gedə yaxın dostluğa çevrildi. Onun yazdığı mahnıların əksəriyyətini mən oxumuşam. Birlikdə qastrol səfərlərində olmuşuq. İndi onun yeri görünür. O, təkcə böyük sənətkar deyildi, həm də böyük insan idi. Rafiq sənətdə zirvə idi, həm də səmimi, dostcanlı insan idi. Rafiq Babayevin qoyduğu məktəb hamımız üçün bir örnək oldu. O, bizi ayrı bir istiqamətə apardı. Biz pul qazanmalıydıq, amma onun tutduğu yol ayrı idi - peşəkar sənət yolu idi. O, bizi bu istiqamətə apardı. Rafiq Babayevlə çalışdığım illər həyatımda ayrıca bir səhifədir".



Mübariz Tağıyev



Salman Qənbərov

### "O SƏVİYYƏNİ QORUMAĞA ÇALIŞIRIQ"

Xalq artisti, tanınmış caz bəstəkarı Salman Qənbərov deyir ki, hər il martın sonlarında Rafiq Babayevin xatirəsinə həsr olunan konsert proqramı təşkil edirlər: "Rafiq Babayevlə xüsusi tanışlığım yox idi, amma dostlarım onun ansamblında işləyirdi. Onların konsertlərini buraxmamağa çalışırdım. Çünki o konsertlər çox səviyyəli idi və biz çox şey öyrənirdik. Rafiq Babayevin adı həmişə musiqiçilərin yaddaşındadır. Bizim nəslimiz, indiki gənclər onun melodiyalara yanaşma təcrübəsindən həmişə öyrənib və bunu inkişaf etdirməyə çalışıb. Biz hər il onun xatirəsinə həsr olunan konsertlər, yubiley gecələri keçiririk. Martın 30-da yenə də bizi Rafiq Babayevin xatirəsinə həsr olunan gözəl bir konsert gözləyir. Rafiq Babayevin bizə yadigar qoyduğu musiqi ənənəsini olduğu kimi davam etdirməyə və o səviyyəni aşağı salmamağa çalışırıq".

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
30 MART ŞƏNBƏ 2024
www.kaspi.az



# NAĞILI GERÇƏK EDƏN QONŞULARIMIZ

Tarixlərində ilk dəfə Avropa çempionatının final mərhələsində oynamaq hüququ qazanan Gürcüstan yığması ölkəni sevincə qərq edib. Yığmanın futbolçuları AVRO-2024-ün final mərhələsinə vəsiqə qazandıqlarına görə "Şərəf" ordeni ilə təltif olunacaqlar.

Bu yay Almaniyada keçiriləcək futbol üzrə Avropa çempionatının final mərhələsinin son iştirakçıları da müəyyənləşib. UEFA Millətlər Liqasının pley-off yolu ilə üç milli komanda "köhnə qitə"nin ən güclü 24 yığması arasına düşməyi bacarıb.

**FƏRQLİ SSENARİLƏR, ORTAQ NƏTİCƏ**

Millətlər Liqası seçmə mərhələdən birbaşa Avropa çempionatına yüksəlməyi bacarmayan yığmalar üçün ikinci şansdır. Bu dəfə pley-off vasitəsilə Polşa, Ukrayna və Gürcüstan arzusuna çatdı. Polyaklar A yolunun yarımfinalında Estoniyanı darmadağın etdilər – 5:1. Finalda isə rəqib daha güclü Uels idi. Əsas və əlavə vaxtda qalib müəyyənləşməyincə, AVRO-2024-ə vəsiqənin taleyi penaltilər seriyasında həll olundu. "Lotereya"da isə polyaklar 5:4 üstün oldular.

Ukrayna yarımfinal və finalda eyni hesabla qalib gəldi. Oyunların ssenarisi də oxşar alındı. Əvvəlcə Bosniya və Herseqovina ilə görüşdə 0:1 geri düşən ukraynalılar yekunda 2:1 üstün olub həlledici qarşılaşmada oynamaq hüququ qazandılar. İslandiya ilə final qarşılaşmasında da ukraynalılar fasilədən sonra toparlanaraq geridönüş etməyi bacardı və Almaniyaya bilet əldə etdi.

Gürcüstan yığması isə yarımfinalda Lüksemburqu 2:0 üstələdi. Həlledici qarşılaşmada komandanın rəqibi Qazaxıstanı 5:0 yenən Yunanıstan idi. Yunanlar cütün favoriti hesab olunurdular. Lakin Tbilisidəki Boris Payçadze adına stadionda keçirilən qarşılaşmanın əsas və əlavə vaxtında qol vurulmadı. Penaltilər seriyasında 4:2 üstün olan gürcülər tarixlərində ilk dəfə Avropa çempionatının final mərhələsində oynamaq hüququ qazandılar.




## GÜRCÜLƏR BUNU NECƏ BACARDILAR?

Gürcüstan millisinin tarixi uğurunun təməlini sistemli işdə axtarmaq lazımdır. Məşhur fransız Villi Sanyol 2021-ci ilin əvvəlindən qonşu ölkənin millisini çalışdırır. Ümumiyyətlə, son illərdə gürcülər uşaq futboluna ciddi diqqət ayırırlar. Bu, özünü xüsusilə lazımi infrastrukturun qurulmasında göstərir. Qonşu ölkədə bir çox klublar yaxşı bazaya və futbol məktəbinə sahibdirlər. Hazırda yığmanın əsasını təşkil edən gənc oyunçular məhz son illərdə yetişib üzə çıxanlardır.

Bundan başqa, əgər əvvəllər Gürcüstan klub futbolu yalnız Tbilisi "Dinamo"su ilə assosiasiya olunurdusa, son illərdə öncə "Saburtalo", ardınca Batumi "Dinamo"su da gücləndi. Sözügedən klublar yerli futbolçuların üzə çıxmasında və Avropanın daha ciddi liqalarına yollanmasında böyük rola malikdirlər.

**RƏQABƏTƏ DAVAMLI OYUNÇULAR**

Gürcüstan futbolunda diqqətçəkən məqamlardan digəri oyunçuların ölkə xaricinə rahat çıxışı və yeni klublarında rəqabətə davamlı ola bilməsidir. Hazırda yığmada Xviça Kvaratsxeliya və Giorgi Mamardaşvili kimi ulduzlar oynayırlar. Digər oyunçuların da əksəriyyəti "Böyük beşlik" ölkələrinin ya əsas, ya da aşağı liqalarında adlarından söz etdirməyi bacarırlar. Kvaratsxeliya və Mamardaşvili kimi nümunələr Avropada "gürcü bazarı"na marağı artırır və get-gedə onların daha güclü liqalara yolu açılır.

Gürcüstan futbol çempionatı hazırda Avropada heç də ən güclülərdən deyil. Yuxarıda adını sadaladığımız klublar üçün qitəmiqyaslı yarışlar prioritet deyil. Onlar legioner oyunçular üçün böyük vəsait xərcləmirlər. Əksinə, əllərində olan yerli oyunçuların parıldaması və onların satışı ilə pul qazanırlar. Klublarda məvaciblərin yuxarı olmaması isə potensiallı yerli oyunçuları xaricə köçməyə sövq edir.


Villi Sanyol

## CƏMİ 150 MİLYON DƏYƏRİ OLAN YIĞMA KOMANDA

Gürcüstan millisinin heyətinin ümumi dəyəri 150 milyon avrodan bir qədər artıqdır. Bunun böyük hissəsi Mamardaşvili və Kvaratsxeliyanın payına düşür. Lakin yığmada Saba Sazonov, Giorgi Qoçoleişvili, Anzor Mekvabişvili, Otar Kiteişvili, Zuriko Davitaşvili, Giorgi Mikautadze, Giorgi Çakvetadze kimi adlar da var. Gürcüstan millisinin futbolçuları AVRO-2024-ün final mərhələsinə vəsiqə qazandıqlarına görə "Şərəf" ordeni ilə təltif olunacaqlar. Bu barədə ölkənin baş naziri İrakli Kobaxidze bildirib. Ümumiyyətlə, yığmanın uğuru ölkədə milli bayram ab-havası yaradıb. Yunanıstanla matçda Nika Kvekveskirinin son penalti zərbəsindən sonra azarkeşlərin Boris Payçadze stadionunun meydançasına axışması da bunun təzahürü idi.

Gürcüstan millisi AVRO-2024-ün final mərhələsində Portuqaliya, Çexiya və Türkiyə ilə eyni qrupda oynayacaq. Belə bir qrupda komandanın uğur qazanmaq şansı çox cüzidir. Lakin yığmanın futbolçuları artıq indidən gürcü azarkeşlərin qəhrəmanına çevriliblər. Bu nəticənin ölkədə futbolun inkişafına təkan vermək ehtimalı yüksək qiymətləndirilir. Bu templə yaxın gələcəkdə yeni kvaratsxeliyalar, mamardaşvililər, kaladzelər, kinkladzelər yetişəcəyi istisna deyil.